Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8
MART
2019-cu il
№ 46 (3944)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN İSRAİL-AZƏRBAYCAN DOSTLUĞUNA QARŞI POZUCU PLANLARI İŞƏ SALIR...

■ səh. 6 ■

Prezident ilk zəlzələ günlərində necə qarşılanmışdı, indi necə qarşılanır...

■ səh. 4 ■

Azərbaycan Prezidenti Paşinyanın ziddiyyətli açıqlamalarının pozucu rolunu növbəti dəfə beynəlxalq arenaya çıxardı

■ səh. 8 ■

Son günlərin bir neçə konkret hadisəsi - Ermənistanın Qarabağ arqumentləri sonadək ifşa olundu

■ səh. 9 ■

Azərbaycan XİN Rusiya rəsmilərinin qondarma "DQR" rəhbərləri ilə təmasları barədə təkzibolunmaz faktlar ortaya çıxardı

■ səh. 2 ■

Azərbaycan İran üçün Ermənistanı regionda tam arxa plana atdı...

■ səh. 8 ■

Paşinyan bir ayda ölkənin valyuta ehtiyatlarının 11 faizini "yeyib"

■ səh. 11 ■

Bu il Azərbaycanın valyuta ehtiyatları bir neçə milyard artacaq...

■ səh. 12 ■

Uşaq xalq çalğı alətləri ansambllarının bu günü...

■ səh. 15 ■



«Mənim işim sizə xidmət etməkdir»

## «Sənə qurban olaram, mən sənin yolunu gözləyirdim» - zəlzələdən sonra bərpa bölgələrində Prezident belə qarşılandı...

■ səh. 3 ■



Azərbaycanda Fətullah Güləni müdafiə edən KİV? - Türkiyə spikerinin sözləri birmənalı qarşılanmadı...

■ səh. 5 ■



Paşinyan iki şərti yerinə yetirsə, 2020-ci ilədək AB-dən 176 milyon avro ala biləcək - vitse-premyer onu ifşa etdi...

■ səh. 10 ■

Paşinyanın Putinlə ilk rəsmi görüşü hətta 2019-cu ildə də baş tutmaya bilər - Baş nazirin dili topuq vurdu...

■ səh. 10 ■

■ səh. 5 ■

ABŞ-ın Azərbaycanda yeni səfirinin ilk mesajları - ABŞ-ın siyasətində dəyişikliklər gözlənir...



■ səh. 7 ■

Paşinyanın "format təxribatı" davam edir - Brüsseldə tam fiaskonun daha bir sübutu... Üzünə xoş baxılsaydı...



■ səh. 4 ■

Şimali Kipr Türk Cümhuriyyəti Parlamentinin deputatlarının Bakı səfəri prinsipial əhəmiyyət kəsb etməyə başlayır...



■ səh. 6 ■

Akif Nağı Qarabağ Komitəsinin rəhbərliyindən niyə uzaqlaşdırıldı?



■ səh. 12 ■

Bakının ictimai nəqliyyatı "inqilab" ərəfəsində...





## Prezident İlham Əliyev zəlzələ baş vermiş rayonlara daha 11 milyon manat ayırdı

**Prezident İlham Əliyev Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan cəmi 11 milyon manat, o cümlədən yaşayış evlərinin, sosial və infrastruktur obyektlərinin tikintisi və onlarda bərpa-gücləndirmə işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 5 milyon manat, yaşayış evlərinin təmiri üçün Şamaxı, İsmayıllı və Ağsu rayon icra hakimiyyətlərinin hər birinə 2 milyon manat ayrılır.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Əfv Məsələləri Komissiyası Novruz qabağı işini yekunlaşdırıb - Siyahı hazırlanır

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyası əfvlə bağlı müraciətlərə baxılma prosesini artıq yenkunlaşdırıb.**

"Trend"in məlumatına görə, martın 5-də komissiyanın sonuncu iclası keçirilib.

Hazırda məhkumların siyahısının hazırlanması ilə bağlı texniki işlər həyata keçirilir. Qeyd edək ki, Əfv Məsələləri Komissiyasının ötən il yanvarın sonlarından mayın ortalarına qədər davam edən iclaslarında 1200-dən artıq müraciətə baxılmışdı. İclasların ardınca, 2018-ci il mayın 24-də Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə əfv olunması haqqında sərəncam imzalayıb. Əfv sərəncamı ümumilikdə 634 nəfərə şamil olunub.

# Azərbaycan XİN Rusiya rəsmilərinin qondarma "DQR" rəhbərləri ilə təmasları barədə təkzibolunmaz faktlar ortaya çıxardı

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin Moskvada keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun ikinci iclası ilə əlaqədar şərhi yayılıb. Şərhdə deyilir:**

"KİV-in yaydığı məlumata əsasən, 5-6 mart tarixlərində Moskvada Rusiya-Ermənistan "Lazarev klubu"nun ikinci iclası keçirilib. Orada tədbir iştirakçılarına Rusiya Federasiyası Prezidentinin salamlama müraciətini çatdıran RF Prezidentinin müşaviri S.Qlazyevin, habelə Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitəsi sədrinin birinci müavini K.Zatulinin timsalında RF-nin icra və qanunverici hakimiyyətinin rəsmi nümayəndələri iştirak ediblər.



Xatırlatmaq istərdik ki, adı yuxarıda çəkilən klubun ilk iclasına Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış separatçı rejimin nümayəndələrinin dəvət olunması, eləcə də həmin ilk iclas çərçivəsində səsləndirilmiş Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə açıq şəkildə qəsd edən ifadələrlə əlaqədar Azərbaycan Respublikası Rusiya Federasiyasının XİN-ə öz narazılığı və hiddətini bildirdi.

"Lazarev klubu"nun ikinci iclası ərəfəsində KİV müxbirinin indiki iclasa da Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərindəki qondarma rejimin liderlərinin dəvət edilməsinə dair RF XİN-in mövqeyi barədə sualına Rusiya XİN-in rəsmi sözçüsü tərəfindən qeyd edildi ki, burada söhbət vətəndaş cəmiyyəti və qeyri-hökumət qurumlarının tədbirindən gedir, RF dövlət orqanları nümayəndələrinin bu tədbirdə iştirakına dair məlumat yoxdur. Eyni zamanda, onun tərəfindən deyildi ki, RF ATƏT-in Minsk Qrupunun həmsədri olaraq üzərinə götürdüyü bütün öhdəliklərini yerinə yetirir.

Bununla bağlı Rusiya tərəfinin diqqətinə çatdırırıq ki, cari ilin 5 mart tarixindəki sözügedən iclasda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələri ilə yanaşı, Rusiya dövlət orqanlarının yüksək vəzifəli rəsmilərinin də iştirakına dair konkret məlumatın mövcud olduğu bir halda, bu, ATƏT-in Minsk Qrupu həmsədrlərinin mandatı ilə müəyyən edilmiş həmsədr ölkəsinin öhdəlikləri ilə kəskin şəkildə ziddiyyət təşkil edir. Qeyd etdiyimiz mandatda aydın şəkildə göstərilir ki, "həmsədrlər öz fəaliyyətində ATƏT-in prinsip və normaları, BMT Nizamnaməsi, 24 mart 1992-ci il tarixli Nazirlər Şurasının qərarı daxil olmaqla, ATƏT forumlarının qərarları və o cümlədən, Budapeşt sammitinin qərarı, həmçinin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini rəhbər tutacaqlar ".

Növbəti dəfə Rusiya tərəfini ikitərəfli münasibətlər çərçivəsində üzərinə götürdüyü öhdəliklərin, o cümlədən 1997-ci ildə bağlanmış Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə müddəalarının əməl olunmasını təmin etməyə çağırırıq. Məlum olduğu kimi, həmin müqavilədə xüsusilə təsbit edildi ki, "Tərəflər separatçı hərəkatları dəstəkləməməyi öhdələrinə götürür və digər Tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş ayrı-ayrı şəxslərin fəaliyyətini qadağan edir və qarşısını alır".

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.
1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**
**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**
**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Elmar Məmmədyarov Rusiya rəsmilərinin "Lazarev klubu"nun iclasına qatılması ilə bağlı etirazını səfirə çatdırıb

**Xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikovu qəbul edib.**



© Trend News Agency

Nazirlikdən baki-xeber.com-a verilən məlumata görə, görüşdə ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri, o cümlədən iqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də çoxtərəfli formatlarda uğurlu əməkdaşlığın davam etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfir M.Boçarnikov, öz rəhbərliyinin tapşırığına əsasən, E.Məmmədyarovu 5 aprel tarixində Moskvada keçirilməsi planlaşdırılan MDB üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclasına dəvət edib.

E.Məmmədyarov öz tərəfindən dəvətə görə təşəkkürünü bildirib. Xarici işlər naziri Azərbaycan və Rusiya arasında mövcud əlaqələrin strateji xarakter daşıdığını və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi oynadığı rolu vurğulayaraq, cari ilin 5-6 mart tarixlərində Moskvada Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təmsilçilərinin iştirakı ilə keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun növbəti iclasına RF dövlət rəsmilərinin də qatılmasının Azərbaycan tərəfinin etirazına səbəb olduğunu vurğulayıb. Nazir həmçinin qeyd edib ki, hələ ötən ilin sonunda Yerevanda keçirilmiş sözügedən klubun ilk iclasına qondarma rejim nümayəndələrinin dəvət edilməsi, orada Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribat xarakterli çıxışların səsləndirilməsi ilə bağlı narazılığımız Rusiya tərəfinə çatdırılıb. Bununla bağlı vurğulanıb ki, bu cür hallar Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin əsaslarını müəyyən edən normativ hüquqi bazaya, habelə Rusiyanın vasitəçi roluna ziddir.

Söhbət əsnasında tərəflər, həmçinin, bölgədə və dünyada cərəyan edən prosesləri və qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparıb.





# "Sənə qurban olaram, mən sənin yolunu gözləyirdim"- zəlzələdən sonra bərpa bölgələrində Prezident belə qarşılandı...

## "Mənim işim sizə xidmət etməkdir"

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 7-də Şamaxıda zəlzələdən zərər çəkmiş ailələr üçün tikilən yeni evlərlə tanış olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə Şamaxı şəhərinin Salman Mümtaz küçəsində Rasim Həsənovun yeni tikilmiş evində yaradılan şəraitlə tanış olub, çay süfrəsi arxasında ailə üzvləri ilə söhbət ediblər.**

Sonra dövlət başçısı və birinci xanım şəhərin Teymur Əliyarbəyov küçəsində Elmira Həsənovanın və Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurovun ailələri üçün tikilən yeni evlərdə yaradılan şəraitlə tanış olub, ev sahibləri ilə söhbət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 7-də Şamaxı rayonunda zəlzələdən zərər çəkmiş ailələr üçün şəhərin 20 Yanvar küçəsində dördmərtəbəli 44 mənzilli yeni yaşayış binasının təməlqoyma mərasimində, Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən "Məktəbəqədər təhsil proqramı" çərçivəsində Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Yerli sakinlərin Prezidentlə çox səmimi və açıq söhbətləri olub. Məsələn, ev sahibi Həcər Zamanova ilə söhbət…

Həcər Zamanova: Sənə qurban olaram, başına dönərəm, xoş gəlmisən.

Prezident İlham Əliyev: Xoş gördük. Necəsiniz?

Həcər Zamanova: Sağ ol, qurban olum. Allahdan sənə cansağlığı arzulayıram.

Prezident İlham Əliyev: Çox sağ olun. İşlər necə gedir?

Həcər Zamanova: Hər şey yaxşıdır. Mən sənin yolunu gözləyirdim. Şükür Allaha ki, bu mənə qismət oldu.

Prezident İlham Əliyev: Əlbəttə, mən mütləq gəlməli idim. Gəlmişəm ki, görüm işlər necə gedir.

Həcər Zamanova: Sənə qurban olaram. Çox şükür. Televizorda görəndə deyirdim, ay Allah, kaş Prezidentlə görüşə biləydim.

Həcər Zamanova: Ağsuda hamı bilir, seyid qızıyam, Quran oxuyanam, namaz qılanam. And olsun o bir Allaha, Sənin rəhmətlik atan dünyadan köçəndən həmişə mən ona dua oxuyur, salavat çevirirəm. Deyirəm, ay Allah, o gəlməsəydi, Azərbaycanda bir dənə də olsun cavan qalmazdı. Gəldi müharibəni dayandırdı. Allah-təala qəni-qəni rəhmət etsin. Allah Səni, oğlunu saxlasın.

Prezidentin insanlarla söhbətlərində bütün məmurlara örnək ola biləcək saysız nümunələrdən tək birini xatırlayaq.

Prezident İlham Əliyev: Mən bu gün gəlmişəm ki, işlərə özüm nəzarət edim, müvafiq göstərişlər verim və sizinlə görüşüm. Burada mənə verilən məktubların hər birinə baxılacaq. Narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim. Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq.



# Prezident ilk zəlzələ günlərində necə qarşılanmışdı, indi necə qarşılanır...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olmaq üçün adıçəkilən rayona səfər edib. Ağsuya səfəri zamanı Prezident rayon sakinləri ilə görüşüb, onlarla söhbət edib.**

*"İnsanların təbəssümündə Prezident İlham Əliyevə olan böyük rəğbət açıq-aşkar özünü göstərirdi"*

Eyni zamanda, ölkə başçısı Ağsu sakinlərinin ərizələrini qəbul edib. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışılıb, Prezident sakinləri narahat edən məsələləri dinləyib. Dövlət başçısı müvafiq tapşırıq və tövsiyələrini verib. Daha sonra ölkə başçısı və xanımı Şamaxı rayonuna səfər edib.

Qeyd edək ki, 2019-cu il fevralın 5-də episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarla fərdi yaşayış evi qəzalı vəziyyətə düşdü. Sosial infrastruktur obyektlərinə ziyan dəydi. O zaman da ölkə başçısı zəlzələ bölgəsinə səfər edərək yerindəcə vəziyyətlə tanış oldu və sakinləri dinləyərək müvafiq göstərişlər verdi. Həmçinin, baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında sərəncam imzaladı. Ölkə başçısının təbii fəlakət bölgəsinə hər iki səfəri ictimaiyyətin böyük marağına səbəb olub. İstər təbii fəlakət baş verəndən sonra, istərsə də sonuncu səfəri maraqla qarşılanır.

Zəzələ bölgəsinə son səfəri zamanı yerli əhali ölkə başçısını daha böyük sevinclə qarşıladı. Nəzərə almaq lazımdır ki, çox qısa zamanda təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün tədbirlərə start verildi. Bütün bunların operativ təşkilində və həyata keçirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətləri var. İctimaiyyət də bunun fərqindədir. Bu baxımdan ekspertlər sözügedən səfərlərdə ictimaiyyətin münasibətində hansı fərqləri görür və ümumən bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, hər iki səfərdə ictimaiyyətin ölkə başçısına olan inamı özünü qabarıq şəkildə göstərdi:** "Prezidentin zəlzələ baş verəndən sonra xalqın yanında olması təbii fəlakətdən zərər çəkən insanları ruhlandırdı. Onlarda bir daha əminlik yaratdı ki, ölkə başçısı onların problemlərinə biganə deyil. Nəticə də göz qabağındadır. Bir aydır zəlzələnin baş verməsinə baxmayaraq, artıq onun nəticələrinin aradan qaldırılması üçün ciddi işlər görülür. Dağılmış evlərin yerində yeniləri ucaldılır. Bu gedişlə qarşıdakı aylarda sakinlər yeni evlərinə köçəcəklər. Hansı bir ölkədə təbii fəlakətin nəticələri belə tez aradan qaldırılır? Deyərdim ki, dünyada ikinci belə ölkə təsəvvür etmək mümkün deyil. Elə ölkələr var ki, orada bənzər təbii fəlakətlərin vurduğu zərərlərin aradan qaldırılması illərlə vaxt tələb edir. Ancaq Azərbaycanda bu yöndə işlər daha operativ təşkil olunur. Təsadüfi deyil ki, Ağsuya səfəri zamanı ictimaiyyət nümayəndələri ölkə başçısını daha böyük coşqu ilə qarşıladılar. İnsanların təbəssümündə Prezident İlham Əliyevə olan böyük rəğbət açıq-aşkar özünü göstərirdi. Rayon sakinləri özlərini daha inamlı hiss edirdilər. Bütün bunları görməmək mümkün deyildi. Digər tərəfdən, müşahidələr göstərir ki, Prezidentin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə görülən tədbirlər ölkənin hərtərəfli inkişafına, xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Ötən 15 ildə bölgələrin siması əhəmiyyətli dərəcədə dəyişib. Regionlar inkişaf edib. İş dalınca bölgələrdən paytaxta axın azalıb. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin ölkədə apardığı məqsədyönlü siyasət nəticəsində mümkün olub".

**Seyid Camal Əzimbəyli:** *"Ağsuya səfəri zamanı ictimaiyyət nümayəndələri ölkə başçısını daha böyük coşqu ilə qarşıladılar"*



***Vidadi ORDAHALLI***

# Şimali Kipr Türk Cümhuriyyəti Parlamentinin deputatlarının Bakı səfəri prinsipial əhəmiyyət kəsb etməyə başlayır...

**Məlum olduğu kimi, Bakıda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bir sıra görüşlər keçirib. Səfər çərçivəsində M.Şentop Milli Məclisin spikeri Oqtay Əsədovla görüşüb. Onun sözlərinə görə, Azərbaycan Türkiyənin xarici siyasətində önəmli yer tutur və Ankara regional və beynəlxalq səviyyədə Bakının maraqlarının müdafiəsinə can atır.**



*"Azərbaycandan olan bir qrup tələbə ŞKTR-in ali məktəblərində oxuyur"*

**Fikrət Sadıqov:** *"Hesab edirəm ki, belə səfərlər Azərbaycanla ŞKTR arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək"*

Spiker, həmçinin, Azərbaycanla Şimali Kipr Türk Respublikasının (ŞKTR - KKTC) dialoqunun əhəmiyyətini qeyd edib: "ŞKTR parlamentinin nümayəndə heyətinin Bakıya səfəri faydalı oldu. Azərbaycanın dəstəyi kiprli türklərin mənəvi durumu və Kiprdə münaqişənin ədalətli tənzimlənməsi baxımından vacibdir".

Öz növbəsində, Milli Məclisin spikeri türkiyəli həmkarını yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik edib və ona işində uğurlar arzulayıb. Əsədov xatırladıb ki, bu günə qədər Bakı ilə Ankara arasında 230 müxtəlif saziş imzalanıb və 30 saziş də imzalanmağa hazırlanır.

Onu da qeyd edək ki, Azərbaycanın ŞKTR ilə yaxın münasibətləri mövcuddur. ŞKTR-də Azərbaycanın, Bakıda isə ŞKTR-in təmsilçiliyi mövcuddur. Bakıda keçirilən müxtəlif beynəlxalq toplantılara ŞKTR nümayəndələri də qatılırlar. ŞKTR-in Bakı nümayəndəliyi 1997-ci ildə açılıb və o vaxtdan fəaliyyət göstərir.

Bütün bu deyilənlərlə yanaşı, ümumilikdə, ŞKTR parlamentinin nümayəndə heyətinin Bakıya səfəri nə kimi nəticələr doğura bilər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sölərinə görə, belə təmaslar Azərbaycanın ŞKTR ilə münasibətlərini daha da dərinləşdirə bilər:** "Əvvəla Mustafa Şentopun səfəri Azərbaycanla Türkiyə arasında parlamentlərarası münasibətlərin daha da yüksək səviyyəyə qalxmasına öz müsbət təsirini göstərəcək. Çünki o, Türkiyə Böyük Millət Məclisinin yeni sədridir və ilk səfəri Azərbaycana edib. Bunun özü də özlüyündə bir göstəricidir. O ki, qaldı ŞKTR parlamentinin nümayəndə heyətinin Bakıya səfərinə, bu çox uğurlu keçdi. Azərbaycanın ŞKTR ilə münasibətləri var. Azərbaycandan olan bir qrup tələbə ŞKTR-in ali məktəblərində oxuyur. Azərbaycanla ŞKTR arasında iqtisadi və humanitar münasibətlər mövcuddur. Ancaq məlum səbəblərdən biz hələ ŞKTR-in müstəqilliyini tanımamışıq. Buna səbəb Dağlıq Qarabağ münaqişəsidir. Biz hər şeyi başa düşürük və anlayırıq ki, ŞKTR-də yaşayan türklər məcburi şəkildə bu addımı atıblar.

O vaxt Kipr türklərinə qarşı etnik təmizləmələr baş verib və yaranan vəziyyətlə əlaqədar Türkiyə onları müdafiə edib. Bizim, hər halda, ŞKTR ilə diplomatik münasibətlərimiz olmasa da, digər əlaqələrimizi genişləndiririk. Hesab edirəm ki, belə səfərlər Azərbaycanla ŞKTR arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edəcək".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda Fətullah Güləni müdafiə edən KİV? - Türkiyə spikerinin sözləri birmənalı qarşılanmadı...

**Bakıda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Azərbaycan hakimiyyətinin Fətullah Gülənin terrorçu hərəkatı ilə mübarizəsini yüksək qiymətləndirib. Bununla belə, Milli Məclisin spikeri Oqtay Əsədovla görüşdə o, Gülən hərəkatı ilə bağlı olan bir sıra KİV-lərin fəaliyyətlərini davam etdirməsindən təəssüfləndiyini bildirib:**





***Müşfiq Ələsgərli:*** *"Şəxsən mən belə bir media nümunəsi tanımıram"*

***Yunus Oğuz:*** *"İctimai rəyə təsir imkanlarına malik qəzet və informasiya saytları arasında həmin şəbəkə ilə əlaqədə fəaliyyət göstərən KİV-lərin olmasına..."*

"Gülən hərəkatı ilə mübarizədə əməkdaşlıq iki qardaş ölkənin tərəfdaşlıq ruhuna cavab verir".

Onun sözlərinə görə, Azərbaycan Türkiyənin xarici siyasətində önəmli yer tutur və Ankara regional və beynəlxalq səviyyədə Bakının maraqlarının müdafiəsinə can atır.

Türkiyənin yüksək rəsmisinin Gülən hərəkatı ilə bağlı olan KİV-lərin ölkəmizdə fəaliyyət göstərməsinə dair fikir söyləməsi olduqca ciddi qəbul olunmalıdır. Çünki bu fikri sıradan bir şəxs yox, Türkiyənin yüksək rəsmisi deyir. Ancaq qeyd etməliyik ki, Azərbaycan qardaş ölkə kimi Türkiyəyə Gülən hərəkatı ilə mübarizədə əlindən gələn dəstəyi ifadə edib. Türkiyədə hərbi çevrilişə cəhddən dərhal sonra Azərbaycanda həmin şəbəkəyə aid olan təhsil ocaqları, kurslar bağlandı. Media sahəsində də bu yöndə addımlar atıldı. Həmin şəbəkənin təsiri altında olan bəzi KİV-lərin ölkəmizdə fəaliyyətinə qadağa qoyuldu. Hətta həmin hadisələrin fonunda ölkənin tanınmış TV-lərindən birinin fəaliyyəti birdəfəlik dayandırıldı. Ancaq, hər halda, Türkiyə parlamenti sədrinin Gülən şəbəkəsinin təsiri altında olan KİV-lərin ölkəmizdə fəaliyyəti ilə bağlı dediyi fikirlər ciddi araşdırma tələb edir. Bu səbəbdən də biz "ölkəmizdə belə KİV-lər fəaliyyət göstərirmi" sualı ilə media cameəsində olan adamlara müraciət etdik?



**Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli qəzetimizə bildirdi ki, Türkiyə rəsmisinin konkret adlar çəkməsi yaxşı olardı:** "Şəxsən mən belə bir media nümunəsi tanımıram. Nəin ki, Gülən hərəkatına bağlı olan, hətta həmin proseslərdə yanlışlığa yol verən KİV-lərə qarşı da Azərbaycan tərəfi konkret addımlar atdı. Hesab edirəm ki, həmin proseslər zamanı ən sərt addımlar Azərbaycanda atıldı. Əgər Türkiyə rəsmiləri hesab edirlər ki, bu istiqamətdə yenə işlər görülməlidir, onda ortaya əsaslandırılmış mövqe qoymalıdırlar. Oxu atıb yayı gizlətməyə ehtiyac yoxdur. Qoy konkret siyahı təqdim etsinlər ki, dövlət də tədbirlərini görsün. Azərbaycanda yalnız KİV-lərin deyil, bütün cəmiyyətin həmin məsələyə münasibəti sərtdir".

**"Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz qəzetimizə açıqlamasında bildirdi ki, Türkiyə parlamenti sədrinin fikirlərində müəyyən yanlışlıq ola bilər:** "Bəlkə də elə sayt və ya qəzet var ki, fəaliyyət göstərir, amma bizim də ondan xəbərimiz yoxdur. Görün, KİV adına iddia edən nə qədər nümunə var. Ola bilər ki, həmin KİV-lərin içində həmin şəbəkə ilə əlaqəsi olan var. Amma üzdə olan, ictimai rəyə təsir imkanlarına malik qəzet və informasiya saytları arasında həmin şəbəkə ilə əlaqədə fəaliyyət göstərən KİV-lərin olmasına inanmıram. Bilirsiniz ki, Türkiyədə baş verən məlum hadisələrdən sonra Azərbaycanda həmin şəbəkənin nəzarətində olan "Zaman" qəzeti və "Zaman" mətbəəsi bağlandı. Çox güman ki, Türkiyə rəsmisi bunu elə belə deməyib. Yəqin ki, Oqtay Əsədov da ondan siyahı tələb edib. Hər halda, sadə məntiq bunu deyir. Ancaq biz Türkiyə parlamenti rəhbərinin siyahısından xəbərsizik. Güman edirəm ki, onun iddiası dəqiq araşdırılacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-ın Azərbaycanda yeni səfirinin ilk mesajları - ABŞ-ın siyasətində dəyişikliklər gözlənir...



*"Örl Litsenbergerin ölkəmiz haqqında işlətdiyi xoş ifadələr dəyərlidir"*

***Vüqar Rəhimzadə:*** *"Qarşılıqlı əlaqələrin inkişafı fonunda, ABŞ səfirinin məlum açıqlaması ölkələrarası münasibətlərdə bir çağırışdır"*

**Məlumdur ki, ABŞ-ın Azərbaycana yeni səfiri təyin olunub. Yeni səfir Örl Litsenberger Azərbaycan haqqında müsbət fikirlərini özünün "Tvitter" hesabından paylaşıb.**

O qeyd edib ki, ABŞ-ın Azərbaycandakı səfiri olmaq onun üçün böyük şərəfdir.

Səfir bildirib ki, diplomat kimi xidmət göstərdiyi 34 il ərzində Əfqanıstan, Əlcəzair, Belçika, Bolqarıstan, Fransa, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və Serbiyada çalışıb. İndi isə Azərbaycana gəlməyindən çox məmnundur: "ABŞ və Azərbaycan arasında sıx əməkdaşlıq mövcuddur. Ölkələrimiz 25 ildən çoxdur təhlükəsizlik, energetika, iqtisadi artım və demokratik inkişaf kimi mühüm sahələrdə əməkdaşlıq edir. ABŞ-ın Azərbaycandakı səfiri kimi ikitərəfli əməkdaşlığımızın bütün aspektlərini gücləndirməyə davam etmək naminə çalışacağam".

ABŞ-ın yeni səfirinin məlum fikri Azərbaycan-ABŞ əlaqələrinin inkişafının hansı yeni perspektivlərindən xəbər verə bilər?

**"İki sahil" qəzetinin baş redaktoru, politoloq Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ABŞ-ın Azərbaycana yeni təyin olunan səfiri Örl Litsenbergerin ölkəmiz haqqında işlətdiyi xoş ifadələr dəyərlidir:** "Səfir xoşniyyətli olmalıdır. O hər hansı bir məsələyə birtərəfli qaydada yanaşmamalıdır. Eyni zamanda, qarşılıqlı münasibətlərin formalaşması və inkişaf etməsində maraqlı olmalıdır. Bu səbəbdən də hesab edirəm ki, yeni səfirin Azərbaycan haqqında xoş fikirdə olması sevindiricidir".

Həmsöhbətimizin sözlərinə görə, terrorizmə qarşı mübarizədə Azərbaycan bir sıra ölkələrlə, eyni zamanda, ABŞ-la də həmfikirdir. Məlumdur ki, Azərbaycan Amerika ilə iqtisadi və bir sıra məsələlərlə bağlı əməkdaşlıq edir. İqtisadi əməkdaşlıqla yanaşı, siyasi əlaqələrin olması da vacib məsələlərdən biridir: "Hesab edirəm ki, qarşılıqlı əlaqələrin inkişafı fonunda, səfirin məlum açıqlaması ölkələrarası münasibətlərdə bir çağırışdır. Bu çağırış hər iki ölkə arasındakı münasibətlərin inkişaf etməsinə səbəb olacaq".

***Günel CƏLİLOVA***

**Ermənistanın xarici işlər nazirinin köməkçisi Qriqor Hovannisyan "Yerusəlim Post" qəzetinə açıqlamasında İsraildə səfirlik açmağı planladıqlarını vurğulayıb. Erməni mətbuatının verdiyi məlumata görə, nazirlik rəsmisi qeyd edib ki, bu addımı atmaqda məqsədləri İsrail-Ermənistan münasibətlərini yeni mərhələyə çıxarmaqdır.**

# Ermənistan İsrail-Azərbaycan dostluğuna qarşı pozucu planları işə salır...

## *Fərəc Quliyev: "Çoxlu dost qazanmaqla, düşmənləri azaltmaq istiqamətində iş görürlər"*



*"Ən düzgün cavab isə bizim İsraildə səfirlik açmamız olar"*

XİN rəsmisi səfirliyi Qüds şəhərində deyil, İsrailə məxsus digər bir şəhərdə də aça biləcəklərini qeyd edib və bildirib ki, İrəvan səfirliyin məhz Qüds şəhərində açılmasında israrçı deyil.

Hovannisyan İsrailin Azərbaycana silah satması məsələsinə də toxunub və açıq şəkildə qeyd edib ki, İrəvan İsrailin Bakıya silah satmamasını arzulayır.

Qeyd edək ki, İsrail Azərbaycana strateji tərəfdaşı olan ölkə sayılır. Dağlıq Qarabağ münaqişəsinə münasibətdə İsrail hər zaman Azərbaycanın haqlı mövqeyini müdafiə edib. Bizim İsraillə münasibətlərimiz ən vacib sahələr üzrə də uğurla inkişaf edir. Bəzi obyektiv səbəblərə görə Azərbaycanın İsraildə səfirliyi fəaliyyət göstərmir. Ancaq İsrailin Azərbaycanda diplomatik korpusu var. Maliyyə çatışmazlığını əsas gətirərək, dünyanın əksər ölkələrində səfirliklərini bağlayan Ermənistan maraqlıdır ki, birdən-birə məhz İsraildə səfirlik açmaq kimi eşqə düşüb.

Əslində, Ermənistanın İsraillə diplomatik münasibətləri hansı məqsədlə genişləndirmək istəyi bizə aydındır və bu, sırf Azərbaycan faktoru ilə bağlıdır. Görünən odur ki, Ermənistan İsraillə münasibətləri inkişaf etdirməklə yanaşı, həm də bu münasibətləri Azərbaycanın əleyhinə yönəltməyi planlaşdırır. Digər vacib məqam isə bundan ibarətdir ki, Ermənistan həmin səfirliyi Qüdsdə deyil, başqa şəhərdə açmaq istəyir. Burda da erməni hiyləgərliyi görünür. Bilirlər ki, səfirliklərini Təl-Əvivdən münaqişəli Qüds şəhərinə köçürən ölkələrə ərəb ölkələrinin əksəriyyətinin münasibəti pis olur. Ermənistan səfirlik açmaq niyyətinin həm də özünə qarşı yönəlməsinin qarşısını qabaqcadan almağı bu yolla planlayır. Ən maraqlısı isə budur ki, Azərbaycanın yaxın dostu olan İsrail dövləti Emənistanın səfirlik açmasına yaşıl işıq yandırarmı?

**Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, dövlətlərarası münasibətlərə aid olan məsələdir:** "Əslində, Ermənistan öz maraqları çərçivəsində normal gediş edir. Azərbaycanın dostları ilə münasibəti dərinləşdirməklə siyasətin əlifbasına riayət edirlər. Çoxlu dost qazanmaqla, düşmənləri azaltmaq istiqamətində iş görürlər. İki dövlət arasındakı bu razılaşmanın qarşısını ala bilmərik. Amma mən dəfələrlə demişəm, bu gün yenidən vurğulayıram, Azərbaycanın İsraildə səfirlik açmasının zamanı çatıb. Hansı dövlətin qısqanmasından asılı olmayaraq, biz bu addımı atmalıyıq. Xüsusən də İranın mövqeyindən çəkinmək lazım deyil. Son zamanlar görürsünüz ki, Ermənistan-İran münasibətləri necə inkişaf edir. Az qala Xocalı soyqırımı günündə birlikdə bayram edirdilər. Suriya, Fələstin rəhbərliyi tərəfindən Qarabağı Ermənistan ərazisi kimi tanıma cəhdlərini görürük. Bu səbəbdən də biz kiminsə mənafeyini nəzərə almadan, sırf öz mənafeyimizdən çıxış edib, İsraildə səfirlik açmalıyıq. Ancaq diplomatik müstəvidə Ermənistanın həmin istəyinə mane olmaq cəhdlərini də etməliyik. Həmin ölkənin əsl iç üzünü açıb İsrailə diplomatik münasibətləri qurmamağı tövsiyə etməliyik. Ən düzgün cavab isə bizim İsraildə səfirlik açmamız olar".

***Məhəmmədəli QƏRİBLİ***

**Martın 6-da Qarabağ Komitəsinin iclası keçirilib. İclasda Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının komitənin idarə heyəti üzvlüyünə xitam verilib. Eyni zamanda, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, xalq şairi Sabir Rüstəmxanlı QK-ya üzv olub.**

# Akif Nağı Qarabağ Komitəsinin rəhbərliyindən niyə uzaqlaşdırıldı?

## *"Mən bunu daha çox sifarişə oxşadıram"*



*"Bunda xaricdən və daxildən maraqlı qüvvələr ola bilər"*

Deputat Fərəc Quliyevin rəhbəri olduğu Milli Dirçəliş Hərəkatı Partiyasının Qarabağ Departamentinin sədri, partiya sədrinin müavini Şakir Ağayev iclasda iştirak edərək, növbəti toplantıda komitəyə üzv olacağını bəyan edib.

Barəsində çıxarılan qərarla bağlı Akif Nağının fikirlərini öyrəndik. O, qəzetimizə açıqlamasında bildirdi ki, belə bir qərarın qəbul ediləcəyini gözləmirmiş: "Doğrusu, bunun səbəbini mənim özüm də anlamıram. Belə bir qərarın qəbul edilməsi heç də bizim şıltaqlığımızdan irəli gəlməyib. Tələm-tələsik qərar qəbul edib, Akif Nağının fəaliyyətinə xitam verməklə nə qazanacaqlar? Qeyri-səmimi bir yanaşma sərgilədilər. Qaydaları pozaraq barəmdə belə qərar qəbul etdilər. Qarabağ Komitəsinin əsasnaməsində idarə heyətindən və komitədən çıxarılma ilə bağlı heç bir maddə, müddəa yoxdur. Bizim qəbul etdiyimiz əsasnamədə komitənin tərkibindən çıxarılma ilə bağlı bənddə belə deyilir ki, komitəyə üzv qəbul oluna və oradan çıxarıla bilər. Yəni orada "kimsə iclasda iştirak etməsə, çıxarılacaq" kimi söhbət yoxdur. Ən azından, şifahi xəbərdarlıq olunmalı idi ki, 3 iclasda iştirak etməsən, çıxarılacaqsan. Buna əməl etmədilər. Mən indiyə qədər üç iclasda iştirak etməmişəm. Bu üçüncü idi. İclasın əvvəlində bu məsələni gündəmə çıxarıb belə qərar qəbul ediblər. Bəlkə iclasın ortasına və ya axırına gəlib çatacaqdım".

Akif Nağı hesab edir ki, görünür, hansısa qüvvələrə onun həmin komitədə təmsil olunması sərf etməyib: "Qarabağla bağlı məsələlərdə biz şəxsi ambisiyamızı kənara qoymalıyıq. Maksimum çalışmalıyıq ki, ortada irəliləyiş olsun. Atılan addımın mahiyyəti o oldu ki, Akif Nağı uzaqlaşdırılsın. Bunun fonunda da başqalarını çağırıb ora üzv edirlər. Görünür, mən orada hansısa proseslərə mane olurmuşam. Burada qısqanclığın və ya kənardan sifarişin olub-olmadığını aydınlaşdırmağa çalışıram".

"Ola bilərmi ki, sizin uzaqlaşdırılmağınız Qarabağla bağlı sərt mövqeyinizlə əlaqəli olsun" sualına Akif Nağı belə cavab verdi: "Bunu istisna etmirəm. Bəlkə də kimlərinsə qərəzli mövqeyinin nəticəsidir. Ancaq mən bunu daha çox sifarişə oxşadıram. Kənardan verilən sifarişə. Bunda xaricdən və daxildən maraqlı qüvvələr ola bilər. Hər halda, mən sifariş əhval-ruhiyyəsini hiss edirəm".

"Axı sizin qurumdan uzaqlaşmanız səsvermə nəticəsində olub, belə çıxır ki, sizinlə bağlı ictimai fikri qurumun daxilində formalaşdırıblar" sualına Akif Nağı belə cavab verdi: "Burada ictimai rəydən söhbət gedə bilməz. Orada üzvlərin çoxu partiya üzvləridir. Onlar daha çox partiyanın verdiyi qərarlara tabe olurlar. Bundan sonra da biz fəaliyyətimizi QAT çərçivəsində davam etdirəcəyik. Hətta bir qədər də gücləndirəcəyik. Komitə doğru mövqe tutarsa, orada da fəaliyyətimizi davam etdirmək barədə düşünərik. Tədbirin hansı partiyanın qərargahında keçirilib-keçirilməməsi kimi xırda ambisiyalar kənara qoyularsa, ortada bir iş alına bilər, yoxsa, heç bir nəticədən söhbət gedə bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın "format təxribatı" davam edir - Brüsseldə tam fiaskonun daha bir sübutu... Üzünə xoş baxılsaydı...

**Ermənistanın baş naziri Nikol Paşinyan Avropaya səfəri çərçivəsində yenidən siyasi avantüraya əl atıb. Baş nazir bildirib ki, İlham Əliyevlə nəzərdə tutulan növbəti görüşdə əsas müzakirə məsələsi danışıqların formatının dəyişməsi olacaq.**



*"Azərbaycan onun çaldığı hava ilə oynamayacaq"*

***Qabil Hüseynli:** "Bu fikri qəsdən səsləndirib, aranı qatıb, danışıqlar prosesini maksimum dərəcədə pozmaq istəyirlər"*

Paşinyan bu xüsusda qeyd edib ki, söhbət separatçı qurumun tərəf kimi danışıqlar prosesində iştirakından gedir. O, bənzər bəyanatı artıq neçənci dəfədir verir. Hər dəfə də Azərbaycan tərəfi və həmsədr ölkələr bunun, ümumiyyətlə, müzakirə mövzusu ola bilməyəcəyini qeyd edsələr də, Paşinyan inadından əl çəkmir. Paşinyan Avropa səfərindən öncə də belə bir bəyanat vermişdi. Yəqin ki, həmin bəyanatı ilə Avropa qurumlarında format məsələsinin müzakirəsi üçün ilkin zəmin hazırlamaq istəyirmiş. Amma Paşinyan Avropa Birliyindən istədiyini ala bilməyib. Daha doğrusu, Avropa komissarları onun ağzından vuraraq, istəyini ürəyində qoyublar.

O, Brüsseldə Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Mogerini və Avropa qonşuluq siyasəti və genişlənmə məsələləri üzrə komissarı Yohannes Hanla görüşüb. Görüşün yekunlarına dair Nikol Paşinyan və Yohannes Han birgə mətbuat konfransı keçiriblər. Mətbuat konfransı zamanı Paşinyan Qarabağ münaqişəsinin nizamlanmasına dair Azərbaycan Prezidenti İlham Əliyevlə baş tutacaq görüş barədə sualı da cavablandırıb. "Bizim görüşümüz, həmçinin, danışıqlar formatına da həsr olunacaq. Biz hesab edirik ki, münaqişənin nizamlanması üçün ilk effektiv format yaratmaq, Dağlıq Qarabağın iştirakını təmin etmək lazımdır" - deyə Paşinyan bildirib.

Yohannes Han isə, öz növbəsində, Paşinyanla razılaşmayaraq, xüsusilə vurğulayıb ki, tərəflər Qarabağ münaqişəsinin nizamlanması üzrə mövcud danışıqlar formatını saxlamalıdırlar: "Söhbət bizim dəstəyimizdən gedirsə, mən hesab edirəm ki, hazırkı danışıqlar formatını saxlamaq lazımdır. Yalnız yenilik üçün nəsə yeni bir şey yaratmağa çalışmaq lazım deyil. Ümumi planda söhbət tərəflər arasında inam əldə olunmasından gedir".

Qeyd edək ki, bu məsələyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən zaman bir daha toxunub.

Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirib.

Göründüyü kimi, Paşinyanın formatın dəyişməsi ilə bağlı nümayiş etdirdiyi israrlı mövqeyi heç kim tərəfindən qəbul olunmur. Belə olan təqdirdə, o, daim bu məsələnin üzərinə gəlməklə nəyə nail olmaq istəyir?

**Politoloq Qabil Hüseynli hesab edir ki, Ermənistanın və konkret olaraq Paşinyanın belə ziddiyyətli bəyanatlar səsləndirməsinin bir məqsədi var, o da sülh danışıqlarını pozmaqdır:** "Aydın şəkildə görünür ki, o, sülh danışıqlarına getmək istəmir, ancaq hansısa dialoqdan danışır. O, hansı dialoqdan söhbət aça bilər? Əksinə, indi Azərbaycanın irəli sürdüyü tezis Ermənistanı sülhə məcbur etmək tezisidir, onun içərisində dialoq da, hər şey də var. Bu gün danışıqlar prosesini pozan, danışıqlara qeyri-konstruktiv yanaşan Ermənistandır, ona görə də Azərbaycan beynəlxalq təşkilatlardan tələb edir ki, Ermənistanı sülh danışıqlarına məcbur etsinlər, çünki ortada BMT-nin 4 qətnaməsi, digər beynəlxalq sənədlər, böyük ölkələrin, qurumların çağırışları var. Ermənistan bunların heç birinə məhəl qoymur, məhəl qoymayan, danışıqlara getmək istəməyən hansı məntiqlə Azərbaycanı dialoqa məcbur etdirmək istəyir? Sən özün sülh danışıqlarına getmirsən, sülh danışıqları da dialoq deməkdir, əksinə, ermənilərə təzyiq göstərib, onları sülh danışıqlarına məcbur etmək lazımdır".

Politoloq hesab edir ki, Ermənistanın son zamanlar tutduğu siyasi xətt sırf qarşıdurmanın qızışdırılmasına yönəlib: "Onlar sülh üçün heç bir mühit yaratmırlar. Qeyd edirlər ki, "sülh əvəzinə, torpaq verəsi deyilik". Bəri başdan hər şeyin içərisinə zəhər qatırlar. Format dəyişikliyi bilirlər ki, mümkün deyil. Bu fikri qəsdən səsləndirib, aranı qatıb, danışıqlar prosesini maksimum dərəcədə pozmaq istəyirlər. Belə olanda Azərbaycan onun çaldığı hava ilə oynamayacaq. Təbii ki, Azərbaycan öz siyasi xəttini yürüdəcək. Əgər söhbət sülh üçün xalqı hazırlamaqdan gedirsə, sən öz danışığına, oturuşuna, duruşuna fikir ver, üstəlik, başqalarını qınayırsan. Bu gün onun danışmağa haqqı yoxdur, öz xalqı üçün danışa bilər, amma Azərbaycan xalqı üçün danışmağa mənəvi haqqı yoxdur. Azərbaycan xalqı onun danışdıqlarını saya salmır. Azərbaycanı dialoq qurmağa heç kim məcbur edə bilməz. Çünki qarşı tərəf dialoq istəmir. Qarşı tərəfin müdafiə naziri yeni hücum əmrindən danışır, müdafiə taktikasından imtina edir, hərbə səylə hazırlaşdıqlarını deyir, bunun özü "torpaq əvəzinə, sülh olmayacaq" deməkdir, sülh tezisinin əleyhinə çıxır. Azərbaycana buna bənzər digər mənasız fikirləri ilə gözdağı verməyə çalışır. Azərbaycan da müəyyən qədər danışıqlarda cəhd göstərəcək və bu cəhdlər Paşinyanın kütbeyin ifadələri ilə qarşılaşdıqda məcbur olacaq ki, sülh danışıqlarından imtina etsin və müharibəyə hazırlaşsın, hərb variantını seçəcək. Ermənilər qulağını açıb, bunu birdəfəlik başa düşməlidirlər. Əgər istəyirlər ki, illər boyu bu qarşıdurmalar davam etsin, davam edəcək və paylarını da alacaqlar".

*Məhəmmədəli QƏRİBLİ*

# Kaliforniya kilsəsində Azərbaycanın dini tolerantlıq ənənələri təqdim olundu




**Kaliforniyanın Pasadena şəhərində yerləşən nüfuzlu "Knox" Presviterian Kilsəsinin dəvətilə Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev həmin kilsədə keçirilən konfransda Azərbaycana dair geniş təqdimatla çıxış edib.** Təqdimatdan öncə Azərbaycandakı dinlərarası harmoniyaya həsr olunmuş çarx nümayiş etdirilib. Sonra çıxış edən baş konsul Nəsimi Ağayev Azərbaycanın coğrafi mövqeyi, müstəqillik tarixi haqqında ətraflı məlumat verərək, ölkəmizdə mövcud olan dinlərarası harmoniya, multikulturalizm və tolerantlıq ənənələrindən danışıb. O, müsəlman dünyasında ilk dünyəvi demokratik respublikanın 1918-ci ildə məhz Azərbaycanda qurulduğunu, ölkəmizin qadınlara ilk dəfə səsvermə hüququ verdiyini, həmçinin müsəlman dünyasında ilk opera, operetta və baletin də Azərbaycana məxsus olduğunu qeyd edib.

N.Ağayev əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda İslam dini ilə yanaşı xristian, yəhudi, bəhai, zərdüşt və digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və sülh şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Baş konsul bu gün dinlərarası dialoqa Azərbaycanın verdiyi töhfələrdən danışaraq, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun Vatikanda katakombaların, eləcə də Fransa, Rusiya və başqa ölkələrdə kilsələrin bərpası üçün gördüyü işləri qeyd edib.

Təqdimatdan sonra keçirilən qrup iclasında baş konsul, həmçinin, Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasəti barədə danışaraq, Xocalı soyqırımı haqda iştirakçıları məlumatlandırıb. N.Ağayev qeyd edib ki, Ermənistan həm öz ərazisində, həm də işğal olunmuş ərazilərimizdəki dini və mədəni irsimizə qarşı əsl soyqırımı həyata keçirib. Baş konsul həmçinin bildirib ki, müxtəlif dinlərin dinc yanaşı yaşadığı Azərbaycandan fərqli olaraq, Ermənistan bu gün monoetnik və təkdinli dövlətə çevrilib, etnik və dini nifrətin müxtəlif formaları olan Azərbaycan düşmənçiliyi (azərbaycanofobiya), eləcə də antisemitizm burada uzun illər dövlət siyasəti səviyyəsinə yüksəldilərək, erməni kimliyinin ayrılmaz parçası halına gəlib. N.Ağayev sonra iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Bu, 500 minədək erməninin yaşadığı Los Anceles Vilayətində erməni icması və lobbisinin sıx mövcud olduğu bölgədə keçirilən ilk Azərbaycan təqdimatı olub.

# Azərbaycan Prezidenti Paşinyanın ziddiyyətli açıqlamalarının pozucu rolunu növbəti dəfə beynəlxalq arenaya çıxardı

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə dövlət başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz.**

*"Xarici işlər nazirlərinin görüşlərində tam başqa bir fikir söylənir, sülhün bərqərar olması istiqamətində danışılır, lakin Paşinyan daxili auditoriya üçün öz çıxışlarını tamamilə başqa bir şəkildə yönəldir"*

**Arzu Nağıyev:** *"Ziddiyyətli məqamlardan biri budur ki, Paşinyan Dağlıq Qarabağ separatçılarını üçüncü tərəf kimi danışıqlar prosesinə cəlb etməyə çalışır"*



Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu deyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu nəzərə çatdırıb. O, Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək, beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Ermənistan tərəfin ziddiyyətli rəsmi açıqlamalar verdiyini qeyd etməklə konkret olaraq nəyi nəzərdə tutur?

**Politoloq Arzu Nağıyev mözvunu "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, burada ziddiyyətli məqam Paşinyanın açıqlamaları ilə bağlıdır.** "Ziddiyyətli məqamlardan biri budur ki, Paşinyan Dağlıq Qarabağ separatçılarını üçüncü tərəf kimi danışıqlar prosesinə cəlb etməyə çalışır. Buna baxmayaraq, ATƏT-in Minsk Qrupunun həmsədrləri bu məsələdə cavabdehdirlərsə, eyni zamanda, BMT-nin patronajlığı altında bu məsələnin həlli onlara həvalə olunubsa, danışıqlar masasında da məhz bu tərəflər əyləşməlidir. Məlum məsələdir ki, Azərbaycan bunu həm diplomatik yolla, həm də hüquqi müstəvidə həll etməyə çalışır. Burada Azərbaycanın öz ərazilərində antiterror əməliyyatları keçirməklə bağlı hərbi həll variantı da var, Ermənistan isə bu variantı Azərbaycanın müharibə elan etmək istəyində olması kimi qələmə verir. Paşinyanın Brüsseldə verdiyi son açıqlama da buna bənzər bir açıqlama idi. Eyni zamanda, bir-birinin mövqeyini aydınlaşdırmaq üçün xarici işlə nazirlərinin görüşlərində tam başqa bir fikir söylənir, sülhün bərqərar olması istiqamətində danışılır, lakin Paşinyan daxili auditoriya üçün öz çıxışlarını tamamilə başqa bir şəkildə yönəldir. O həm İranda, həm Brüsseldə, həm də öz seçiciləri ilə görüşdə separatçı bəyanatlar verdi" - deyə bildirən A.Nağıyevin sözlərinə görə, Ermənistanda iqtisadi vəziyyət çox gərgindir. Aprel ayında Paşinyanın hakimiyyətə gəlməsinin 1 ilinin tamam olacağını xatırladan A.Nağıyev qeyd etdi ki, o tam şəkildə bir hesabat verməlidir. "Ona görə də daxili siyasətlə oynayaraq, gah Ermənistanın xüsusi xidmət orqanının rəhbərini Qarabağa göndərərək onu bir bəyanatla çıxış etdirir, gah da digər istiqamətdə ziddiyyətli açıqlamalar verir. Düşünürəm ki, ən ziddiyyətli bəyanat məhz budur" - deyə A.Nağıyev vurğuladı.

*İradə SARIYEVA*

# Azərbaycan İran üçün Ermənistanı regionda tam arxa plana atdı...

**Bu gün qonşu İranla əlaqələrin yüksək səviyyəyə çatdırılması həm Azərbaycanın, həm də ərazilərimizin bir hissəsini işğal altında saxlayan Ermənistanın xüsusi maraq dairəsində yer alır. Amma real vəziyyətin təhlili bu sahədə İrəvanın artıq daha böyük fərqlə Bakıya uduzmaqda olduğunu üzə çıxarır. Xatırladaq ki, ötən ayın sonlarında Ermənistanın baş naziri İrana səfər etdi və bu səfər fonunda Tehranla çoxsaylı yeni müqavilələrin imzalanması, İrandan Ermənistana sərfəli qiymətlərlə qaz satışı kimi böyük gözləntilər var idi.**



Amma "İravnuk" qəzeti yazır ki, əslində, Ermənistan gözlədiklərinin heç birini əldə edə bilməyib, əvəzində Qərbin daha sərt təpkisi ilə üzləşib.

Bütün bunlar fonunda isə Azərbaycan-İran əlaqələri indi daha dinamik formada inkişaf edir və Tehran özü bu prosesə xüsusi maraq göstərir. Martın 6-da İranda açılışı baş tutan Qəzvin-Rəşt dəmir yolu xəttinin işə düşməsi fonunda İran rəsmiləri bu istəklərini ən yüksək səviyyədə dilə gətiriblər. Açılış mərasimində çıxış edən İran prezidenti Həsən Ruhani Qəzvin-Rəşt dəmir yolunun hissəsi olduğu "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin hər iki ölkənin dövlət başçılarının daim diqqətində olduğunu vurğulayıb. Qeyd edib ki, Qəzvin-Rəşt dəmir yolu yalnız İranın və Azərbaycanın deyil, eyni zamanda, Rusiya və Şimali Avropa ölkələrinin də dəmir yolları sistemlərini birləşdirəcək. Onu da diqqətə çatdırıb ki, bu beynəlxalq dəhlizin həyata vəsiqə qazanmasında, İranla yanaşı, Azərbaycan da böyük işlər görür. Onun sözlərinə görə, İranın yaxın dostu və qonşusu olan Azərbaycanla iqtisadi əlaqələrin daha da dərinləşməsi davam etdiriləcək.

Prezident bildirib ki, Qəzvin-Rəşt dəmir yolu gələcəkdə Astara şəhərinə qədər çəkiləcək və Azərbaycanla İranın dəmir yolları birləşəcək: "Bu yol yalnız iki ölkənin deyil, eyni zamanda, Asiya ilə Avropanın dəmir yollarının birləşməsini şərtləndirəcək. Qəzvin-Rəşt dəmir yolu yaxın gələcəkdə Fars körfəzi ilə Şimali Avropa dövlətləri arasında "körpü" rolunu oynayacaq. Fars körfəzinə daxil olan yüklər Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu ilə İran və Azərbaycan ərazisindən keçməklə Avropaya, eləcə də əks istiqamətə daşınacaq. Bu isə xalqların rifah halının yüksəlməsinə, dövlətlərin isə əlavə iqtisadi dividendlər qazanmasına səbəb olacaq".

İranın iqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsənd də vurğulayır ki, İranın strateji xarakter daşıyan siyasi xəttində Azərbaycanla əlaqələrin inkişaf etdirilməsi xüsusi yer tutur. Nazir bildirib ki, hər iki ölkə prezidentinin çoxsaylı görüşləri təsadüfi xarakter daşımır. Prezidentlər arasındakı görüşlərin intensivliyi əlaqələrin daha da inkişaf etməsi üçün böyük zəmin yaradır: "İranla Azərbaycan arasında elm, mədəniyyət, ticarət, turizm əlaqələri ildən-ilə inkişaf edir. Bu çox sevindirici haldır. Nəqliyyat sahəsində əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasını isə Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolunun çəkilişi göstərir. Azərbaycan regionun iqtisadi cəhətdən inkişaf etmiş dövlətidir və bu inkişaf tranzit yüklərin daşınması üçün infrastrukturun yaradılmasına imkan verib. Astara(İran)-Astara(Azərbaycan) dəmir yolunun çəkilişində, Astaraçay üzərində dəmir yolu körpüsünün inşasında Azərbaycan tərəfi İranla birgə böyük işlər görüb. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə daxil olan Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu tam hazır olduqdan sonra ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin daha da genişlənməsinə, beynəlxalq bazarlarda da əməkdaşlığına imkan yaradacaq". F.Dejpəsənd qeyd edib ki, İranla Azərbaycan arasında bank və maliyyə sahəsində də əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məsələsinə baxılıb, yaxın gələcəkdə bu sahədə əməli addımlar atılacaq.

İran Prezidenti Aparatının (Dəftərxanasının) rəhbəri Mahmud Vaizi də eyni mövqe sərgiləyir: "İran İslam Respublikası və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. İki xalq arasında böyük və qarşılıqlı marağın mövcudluğu münasibətlərin dərinləşdirilməsi və genişləndirilməsi üçün yaxşı təməldir". Mahmud Vaizi vurğulayıb ki, Bakı ilə əlaqələrin inkişafında rəsmi Tehran heç bir məhdudiyyət görmür. O, ikitərəfli əlaqələrin inkişafını dəstəkləyərək ölkələr arasında münasibətlərin yeni dinamika qazanması üçün səylərin artırılmasını vacib hesab edib. Prezident Aparatının rəhbəri qeyd edib ki, iki dövlətin hökumətlərinin iradəsi ilə bütün müqavilələr yaxşı icra olunur, xalqlar və regionun maraqları naminə əməkdaşlığın daha da inkişaf etdirilməsi zəruridir.

Bütün bunlar İranın Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi maraq göstərdiyinin real təsdiqi sayılır. Ekspertlər isə bildirir ki, Qəzvin-Rəşt dəmir yolunun fəaliyyətə başlaması təkcə "Şimal-Cənub" deyil, eyni zamanda, "Cənub-Qərb" nəqliyyat dəhlizinin inkişafı istiqamətində atılmış çox mühüm addımdır. Bütün bunlar daşınan yüklərin həcminin artırılmasını təmin etməklə Azərbaycan və İranın nəqliyyat-tranzit, ticarət-iqtisadi potensialının gücləndirilməsinə böyük töhfə verəcək. Aydındır ki, belə vəziyyətdə də Ermənistan İran üçün daha çox arxa plana keçəcək.

*Nahid SALAYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Son günlərin bir neçə konkret hadisəsi - Ermənistanın Qarabağ arqumentləri sonadək ifşa olundu

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə qəbuledilməz şərtlər irəli sürməklə manea yaratmağa çalışan Ermənistanın baş naziri Nikol Paşinyanın addımları təkcə Azərbaycan yox, dünya ictimaiyyəti tərəfindən də kəskin şəkildə pislənir. Belə görünür ki, Paşinyanın bu xüsusda mövqeyi Ermənistan üçün, əslində, diplomatik müstəvidə yeni problemlər də yaradacaq.**

Məsələnin bu tərəfini diqqət mərkəzinə gətirən Azərbaycan bildirir ki, Ermənistan baş nazirinin Qarabağ münaqişəsi üzrə aparılan danışıqların formatını dəyişmək arzusu ATƏT-in Minsk Qrupunun, xüsusilə də onun Rusiya, ABŞ və Fransadan olan həmsədrlərinin fəaliyyətini məhv etmək kimi nəzərdən keçirilə bilər. Rəsmi Bakı onu da bəyan edir ki, danışıqların ATƏT-in 1992-ci il Helsinki Nazirlər Şurasının qərarı ilə təsdiq olunmuş formatını ATƏT üzv ölkələrinin konsensus qərarı olmadan dəyişmək qeyri-mümkündür. Bu qərara əsasən, Ermənistan və Azərbaycan münaqişənin tərəfləri, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları isə maraqlı tərəflər qismində çıxış edir. Bütün bunlar fonunda Azərbaycan vurğulayır ki, Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun dəyişdirilməsi, danışıqların mövcud format əsasında davam etdirilməsi vacibdir. Əks təqdirdə problemin çözümü hərbi səpkidə olacaq.

Rusiyanın "regnum.ru" portalı da yazır ki, yaranmış vəziyyətdə danışıqlar formatı ilə bağlı beynəlxalq ictimaiyyət Azərbaycanın mövqeyini qəti şəkildə dəstəkləyir və Paşinyan özü də bunu Avropa səfəri fonunda aydın gördü. O da vurğulanır ki, Bakının mövqeyinin İrəvan tərəfindən nəzərə alınması Ermənistan üçün daha məqbul hal olardı. Bu xüsusda "regnum.ru" daha sonra yazır: "Nikol Paşinyan Brüsselə işgüzar səfəri fonunda Avropa İttifaqı strukturlarının başçıları, Avropa Şurasının prezidenti Donald Tusk və Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerlə, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali təmsilçisi Federika Moqerini ilə yüksək səviyyədə danışıqlar apardı. Əslində, səfər "özünü göstərmək və dünyaya baxmaq" prinsipi üzrə keçib. Çünki prinsipial əhəmiyyətli heç bir konkret sazişdən söz açılmayıb.

Ermənistan Təhsil və Elm Nazirliyi və Flandriyanın Xarici İşlər Nazirliyinin departamenti, IMEC mərkəzi və "Müəssisələr inkubatoru" fondu arasında qarşılıqlı anlaşma haqda memorandumları böyük çətinliklə irəliləyişə aid etmək olar. Görünür, "qızılgül inqilabı"ndan sonra demokratik yolla inkişaf etməyə və Avropada qəbul edilmiş "dəyərlər sistemi"nə tərəfdar olduğunu bəyan edən Paşinyan ümid edirdi ki, Brüsseldə onu, sadəcə alqışlamayacaq, həm də maliyyə-iqtisadi yardımı göstərəcəklər. 100 milyon avrodan danışırdılar, amma bu məbləğ hələ "köhnə hakimiyyət"lə şərtləşdirilib, belə ki, prinsipcə heç nə dəyişilməyib. Paşinyanın özü hələ keçən ilin yayında NATO sammitində bildirib: "Biz xahiş edən durumunda deyilik, hansı siyasəti aparmaq onların seçimi, onların qərarıdır. Onlar mövqelərini müəyyən edəndə onların siyasətinə münasibətimizi yekunlaşdırarıq".

O bununla kifayətlənib ki, Avropa İttifaqı və NATO-nun yüksəkməqamlı şəxsləriə, ondan çox dövlətin liderləri ilə bir sıra görüşlər keçirib. Paşinyanın Brüsselə indiki səfərinin yekunlarına əsasən, Avropa də mövqeyini müəyyən etməyib, amma Avropanın yüksəkməqamlı siyasətçilərinin "demokratik İrəvan"ın ünvanına "hərarətli və təbrik bəyanatları"nın səviyyəsi hər cür təriflən yuxarıdır. Lakin Ermənistan-Avropa işgüzar əlaqələrinin inkişafının önəmi, ticarət dövriyyəsinin artımı, birgə yatırım proqramlarının gerçəkləşdirilməsi haqda bəyanatlar hələlik ancaq bəyanat olaraq qalır. Bir də "Ermənistanda islahatlar potensialını Cənubi Qafqazdakı münaqişələr dayandırır", "həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi və bölgədə gərginliyin saxlanması həm bizim ölkənin, həm də bütün bölgənin yatırım cazibədarlığını azaldır" bəyanatlarını verən baş nazirin özünün sözləri bayağı həqiqət və uzun çəkən oyun kimi qəbul olunub.

Buna görə də Ermənistanın Paşinyanın səfərinin başlıca mənasını, guya "Ermənistanın qabaqlar yalnız Rusiya xarici siyasət vektoruna tərəfdar olduğu, indi isə Avropanın da olduğu", İrəvanın "beynəlxalq münasibətlərin təəccüb və saygı doğuran hansısa yeni modelini təklif etdiyi" haqda düşüncələr təəccüb doğurur. Doğrudan da, korrupsiya ilə mübarizə, yoxsulluğun aradan qaldırılması, müstəqil məhkəmə sistemini formalaşdırılması və bütün iqtisadi və siyasi subyektlər üçün bərabər qaydaların təminatı Ermənistan hökumətinin prioritetləri içindədir. Paşinyanın sözlərinə görə, "Ermənistan və Avropa İttifaqı arasında hər şeyi əhatə edən və genişləndirilmiş tərəfdaşlıq haqda sazişin gerçəkləşdirilməsi islahatlarımızın bütün sahələri üçün böyük mənaya malikdir".

Ancaq Avropa qabaqlar da var idi, Avropa İttifaqı ilə "Şərq tərəfdaşlığı" üzrə sənədləri isə Paşinyan imzalamayıb. Buna görə də Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankinin "Ermənistan baş nazirinin Berüsselə səfərində heç bir gizli məna axtarmaq gərək olmadığı", "Ermənistan rəhbərliyinin Rusiyanın strateji müttəfiqi olduğu və KTMT və AİB çərçivələrində də özünün bütün öhdəliklərinə əməl edəcəyini dəfələrlə təsdiqlədiyi" haqda sözlərilə razılaşmamaq çətindir.

Pankin bununla yanaşı etiraf edir ki, "erməni həmkarlarımızın ölkədə islahat keçirməkdə yardıma ehtiyacı var", amma "onların təkcə iqtisadi və siyasi xarakterdə problemləri yoxdur, həm də əlavə çətinlikləri var". Dağlıq Qarabağ münaqişəsi problemini indiki İrəvan üçün "əlavə çətinlik" saymaq olarmı? Demək çətindir. Lakin İrəvanın xarici tərəfdaşlarla heç bir təması onun müzakirəsi olmadan ötüşmür. Bu dəfə də belə idi. Paşinyan Brüsseldə özünün qabaqkı tezisini təkrar edib ki, Dağlıq Qarabağ əhalisini təmsil etmir və "yalnız Ermənistan Respublikası sakinlərinin mandatı əlindədir". Onun fikrincə, "yalnız Dağlıq Qarabağ təmsilçiləri danışıqlar masasının arxasına əyləşəndə və onların səsi eşidiləndə sülh danışıqları hissolunası irəliləyiş verə bilər".

Amma Brüssel bildirir ki, "status-kvonun saxlanması uzun çəkə bilməz və beynəlxalq hüquqa uyğun siyasi həll tapmaq gərəkdir" və hesab edir ki, Qarabağ üzrə danışıqlarda "ancaq yenilik xatirinə hansısa yeni bir mexanizmin icadına can atmaq lazım deyil, indiki formata tərəfdar olmaq daha yaxşıdır". Avropa İttifaqı eyni zamanda bu fikrə tərəfdardır ki, Qarabağ üzrə danışıqlarda "yaxşı çıxış nöqtəsi Ermənistan və Azərbaycan başçılarının və xarici siyasət idarələri rəhbərlərinin ilk təmaslarıdır". Belə ki, İrəvanın Avropa İttifaqına böyük ümidi hələlik ona bəslənən ümidləri heç cür doğrultmur. Bu, Paşinyanı yeni xarici siyasət qərarlarına itələyə bilər. Onun vaxtı azdır. "Lazarev klubu" ekspertlərinin vurğuladıqları kimi, "Ermənistan strateji perspektivdə bir yığın problemlə, o cümlədən daxli problemlərlə üzləşməli olacaq və heç kim bilmir ki, tezliklə hansı Ermənistanla iş görməli olacağıq". Məhz qeyd edilənlər fonunda "regnum.ru" mövqeyini belə yekunlaşdırır ki, Paşinyan daha ciddi çətinkliklər və problemlər məngənəsində çabalayan Ermənistan görmək istəmirsə, Qarabağ münaqişəsinin həllində real addımlar atmalıdır, daha onu mürəkkəbləşdirməklə məşğul olmamalıdır. Əks təqdirdə Ermənistanın daha böyük tənəzzülü qaçılmaz sayılır.

O da bildirilir ki, Qarabağ münaqişəsinin həllinin uzanması müəyyən qüvvələr tərəfindən elə Ermənistanın öz daxilində Paşinyan üçün ciddi problem yarada bilər. Bunu Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyov da təsdiq edir və vurğulayır ki, Ermənistanda daxili qarşıdurma getdikcə kəskinləşir. Onun sözlərinə görə, Ermənistanda mövcud olan ziddiyyətlər erməni cəmiyyətinin parçalanmasına gətirib çıxaracaq: "Bu parçalanma Qarabağ üzərində nəzarətin itirilməsi ilə nəticələnəcək. Qarabağda nəzarəti itirən Ermənistan özü də yox olacaq".

Digər rusiyalı ekspert Nikita İsayevin də fikrincə, Ermənistanda yeni elitaların formalaşması və mübarizəsi gedir, bu prosesdə isə Qarabağ amilindən geniş istfiadə olunur: "Birincisi, Ermənistan cəmiyyətində müxtəlif siyasi qruplar müəyyən səlahiyyətlərə sahib olmaq uğrunda mübarizə aparır. Mübarizənin əsas tərəfi həm də iqtiadiyyatın müxtəlif sektorlarına nəzarət uğrundadır.

İkincisi, Rusiya-Ermənistan münasibətlərinin kəskinləşməsi erməni cəmiyyətində narahatlıq yaradıb, xüsusilə Robert Köçəryana 2008-ci il 1 mart hadisələrinə görə cinayət işinin açılması bu narahatlığı artırıb. Üçüncüsü, erməni cəmiyyəti anlamağa çalışır ki, ölkənin iqtisadi və siyasi təhlükəsizliyinə hansı güc zamin olacaq: Rusiya, ABŞ, Çin, Avropa İttifaqı ölkələri - Almaniya və ya Fransa? Nikol Paşinyanın hazırda həyata keçirdiyi "qayıq diplomatiyası" belə sualların yaranmasına səbəb olur. Bu proseslər fonunda Qarabağda hərbi eskalasiyanı istisna etmirəm".

Digər ekspert Stanislav Tarasov da vurğulayır ki, Ermənistanın tutduğu indiki mövqe Qarabağ münaqişəsinin dinc həllinə xidmət etmir. Onun sözlərinə görə, rəsmi Bakı hələ ötən il Ermənistandakı inqilabdan istifadə edərək müharibə başlada və öz torpaqlarını geri qaytara bilərdi. Rusiyalı politoloq vurğulayır ki, bunun baş verməməsinin səbəbi Azərbaycan rəhbərliyinin Paşinyanın konstruktiv addım atacağına ümid etməsi idi. Lakin indi Paşinyanın əks mövqedə olması savaşı qaçılmaz edərək Qarabağ münaqişəsini yenidən alovlandıra bilər. Tarasov qeyd edir ki, bundan uduzan tərəf Ermənistan olacaq və Paşinyan Azərbaycanın hərbi gücünü nəzərə almalıdır. Ekspert onu da xatırladır ki, Ermənistanın danışıqlar formatına yeniliklər gətirmək cəhdi də iflasa məhkumdur və vasitəçi ölkələr də daxil olmaqla, dünya mövcud formatı dəstəkləyir. Bütün bunlardan Ermənistanın lazımi nəticələr çıxarmaması isə, yuxarıda qeyd olunduğu kimi, sonda İrəvanın öz əleyhinə işləyən faktor olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyanın Putinlə ilk rəsmi görüşü hətta 2019-cu ildə də baş tutmaya bilər - Baş nazirin dili topuq vurdu...

## *Əli Orucov: "Kreml Paşinyana inanmır və onun ciddi fiqur olduğunu düşünmür"*

**Ermənistanın baş naziri Nikol Paşinyan mətbuata açıqlamasında Rusiya ilə münasibətlərə toxunub. Paşinyan onun Moskvaya, Putinin isə Yerevana səfərinin hazırlandığını qeyd edib. Ancaq o, Putinin dəqiq hansı tarixdə Ermənistana rəsmi səfər edəcəyini deyə bilməyib.**



*"Bu səbəbdən Putin Ermənistana rəsmi səfər etməyə maraqlı görünmür"*

O jurnalistin bununla bağlı sualına "hələ dəqiq tarix yoxdur" cavabı verib: "Bu il bir neçə dəfə görüşəcəyik - məsələn, Avrasiya İqtisadi Birliyinin zirvə görüşü zamanı. Bununla yanaşı, ümid edirəm ki, bu il Vladimir Putin Yerevana rəsmi səfər edəcək".

Bununla yanaşı, Paşinyan ölkədə baş verən "məxməri inqilab"ın "rəngli inqilab" kimi qələmə verilməsini qəbuledilməz adlandırıb: "Bizim üçün Rusiya cəmiyyətinin bütün zümrələrinin inqilabın mahiyyətini anlaması çox vacibdir. Təəssüf ki, bu günə qədər Rusiyanın ekspert dairələri baş verənləri "rəngli inqilab" kimi qələmə verməyə çalışırlar. Rusiyalı partnyorlarımızın baş verənlərdə nə geopolitik kontekst, nə də xarici ölkələrin təsirinin olmadığını anlamasını istəyirik. İnqilabımıza Rusiyada bəzilərinin "rəngli inqilab" təsəvvürü ilə baxması bizi təhqir edir".

Göründüyü kimi, Rusiya Prezidenti hələ də Ermənistana rəsmi səfər etməyə tələsmir. Ermənistanda ötən ilin dekabrında keçirilən parlament seçkilərindən sonra yaranan yeni kabinetin fəaliyyəti də nəyisə dəyişə bilməyib. Ən başlıcası, bu, Paşinyanın apardığı xarici siyasətin uğursuzluğundan irəli gəlir. Yəni Paşinyan nə Qərblə işləri yoluna qoyub, nə də Rusiya ilə. Bir neçə dəfə səylər göstərsə də, V.Putinin Ermənistana rəsmi səfər etməsinə nail ola bilməyib. Bu baxımdan, yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, Paşinyan uğursuzluğa məhkumdur:** "Paşinyanın siyasəti də, bu siyasət üzərindən əldə edə bildiyi hakimiyyət də yalan və populizm üzərində qurulub. O, ağlabatmaz elə vədlərlə çıxışlar edirdi ki, erməni xalqı ilk baxışdan buna inanmışdı. Ancaq müəyyən müddət keçdikdən sonra yalan pərdəsi çəkildikcə, həqiqətlər və reallıqlar üzə çıxmağa başlayır. Ermənistan baş nazirri Qərblə Rusiya arasında vurnuxmaqla öz populizminə dəstək qazanmağa səy göstərməkdədir. Lakin nə Qərbdən, nə də Rusiyadan istədiyi dəstəyi ala bilmir. Daxildə də narazılıqlar getdikcə geniş vüsət alır. Dağlıq Qarabağ problemi ilə də bağlı küncə sıxışdırılmaqdadır. Belə bir əlverişsiz vəziyyətin davamı isə N.Paşinyan hakimiyyətinin ömrünü qısaltmaqdadır. Paşinyan Putinlə görüşüb rəsmi Moskvanın mövqeyini bir qədər yumşaltmağa cəhdlər edir. Ancaq onun bu cəhdləri səmərə vermədi. Çünki Kreml Paşinyana inanmır və onun ciddi fiqur olduğunu düşünmür. Bu səbəbdən Putin Ermənistana rəsmi səfər etməyə maraqlı görünmür. Xatırlayırsınızsa, hakimiyyətə gələr-gəlməz, Paşinyan KTMT və Avrasiya İttifaqını şantaj etdi. Bəzi hədə-qorxular gəlməklə Ermənistanın müəyyən güzəştlər qazanmasına nail olmaq, özünü vacib sima kimi həzm etdirmək istədi. Lakin bunun cavabı elə sərt və gözlənilməz oldu ki, sonradan az qala yalvarmağa başladı. Məncə, Paşinyan ritorikasını da, siyasətini də dəyişməsə, sonu çox uzun çəkməyəcək".

***Vidadi ORDAHALLI***

# Paşinyan iki şərti yerinə yetirsə, 2020-ci elədək AB-dən 176 milyon avro ala biləcək - vitse-premyer onu ifşa etdi...

## *Elşən Manafov: "Ən əsas amil ondan ibarətdir ki, xarici kapital qoyularkən həmin ölkədə sabitlik nəzərə alınır"*

**Məlum olduğu kimi, Ermənistan baş naziri Nikol Paaşinyan Brüsselə səfər edərək bir sıra görüşlər keçirib. Ancaq görünən odur ki, onun bütün səylərinə rəğmən, Avropa qurumlarından yetərli miqdarda maliyyə vəsaiti ala bilməyib. Yəni Paşinyanın iqtisadiyyatın sıçrayışlı və inqilabi inkişafı barədə verdiyi bəyanata baxmayaraq, beynəlxalq maliyyə təşkilatları yaxın illərdə Ermənistanda heç bir iqtisadi möcüzə vəd eləmirlər.**



*"Bu baxımdan, Ermənistanda vəziyyət müəyyən mənada kövrəkdir"*

Artıq erməni mətbuatı da etiraf edir ki, Avropa İttifaqı Ermənistana maliyyə yardımı göstərməyə o qədər də həvəsli deyil. Baş nazirin müavini Mqer Qriqoryan ölkə mətbuatına açıqlamasında səfərin yüksək səviyyədə keçdiyini təqdim etməyə çalışsa da, bəzi məsələlərin hələ açıq qaldığı məlum olub. Belə ki, N.Paşinyanla birgə mətbuat konfransında Avropa Komissiyasının sədri Jan-Klod Yunker bildirib ki, Avropa İttifaqının mesajı dəyişməyib. Ermənistan daha çox islahat apararsa, o zaman daha çox maliyyə və siyasi dəstək alacaq: "Biz 2017-2020-ci illər üçün 176 milyon avro nəzərdə tutmuşuq. Ancaq korrupsiyaya qarşı mübarizə və məhkəmə sahəsində çox işlər görülməlidir".

Avropa liderləri ilə Ermənistan-Avropa İttifaqı çərçivə sazişinin ratifikasiyasına məcburetmə ilə bağlı müzakirələrə gəldikdə isə, Qriqoryana görə, sazişin müddəalarının əksəriyyəti ratifikasiya olunmadan qüvvəyə minib.

Görünən odur ki, Avropa İttifaqı yalnız bəzi şərtlərin yerinə yetirildiyi təqdirdə Ermənistana müəyyən qədər maliyyə yardımı edə bilər. Həmin şərtlərin Paşinyan hökuməti tərəfindən nə dərədəcə yerinə yetiriləcəyi isə qeyri-müəyyən görünür. Belə olan halda, bəlli olur ki, Avropa qurumları Ermənistana maliyyə yardımı göstərməkdə həvəsli görünmürlər.

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Elşən Manafov Avropa institutlarının Ermənistana maliyyə yardımı göstərməkdə maraqlı olmamasını bir sıra amillərlə əlaqələndirdi:** "Bunun bir səbəbi bölgədəki geosiyasi amillərlə və daha çox Ermənistana Rusiyanın kifayət qədər təsir imkanlarının olması ilə bağlıdır. Çünki hələ ki, Ermənistan hakimiyyəti ölkəni Rusiyanın təsirindən çıxarmağa nail olmayıb. Etiraf etmək lazımdır ki, yaxın perspektivdə buna nail olmayacaq. Düşünürəm ki, həm də buna görə Avropa institutları Ermənistana məliyyə dəstəyi göstərməyə tələsmirlər. Digər tərəfdən, kredit verəndə həmin ölkənin hansı öhdəlikləri öz üzərinə götürəcəyi nəzərə alınır. Ermənistan yalnız ağır şərtlər müqabilində belə yükün altına girə bilər. Məlum məsələdir ki, Qərbin maliyyə institutları kreditləri sadəcə olaraq Paşinyan iqtidarına dəstək olmaqdan ötrü vermirlər. Həmin institutların bu və ya digər şəkildə Ermənistanda maraqları var. Onlar verdikləri kreditlərdən ciddi şəkildə mənfəət götürmək istəyirlər. Ən əsas amil ondan ibarətdir ki, xarici kapital qoyularkən həmin ölkədə sabitlik nəzərə alınır. Bu baxımdan, Ermənistanda vəziyyət müəyyən mənada kövrəkdir.

Çünki Paşinyan iqtidarı ilə ona müxalif olan qüvvələr arasında münasibətlərə tam mənada aydınlıq gətirilməyib. Rusiya ilə Ermənistan arasında geosiyasi mübarizə qabaqdadır. Avropa qurumları da bütün bunların fərqindədirlər. Belə bir vəziyyətdə Paşinyanın nə dərəcədə ciddi islahatlara gedəcəyi sual altındadır. Ona görə də Avropa qurumları Ermənistana maliyyə yardımı göstərməkdə maraqlı deyillər".

***Vidadi ORDAHALLI***

# Paşinyan bir ayda ölkənin valyuta ehtiyatlarının 11 faizini "yeyib"

**"Ermənistan Mərkəzi Bankının valyuta eytiyatları günbəgün sürətlə azalır. Vəziyyət bu cür davam edərsə, ölkənin xarici kreditorlardan asılılığı daha çox artacaq ki, bu da dövlət borcunu pik həddə çatdıracaq". Bu məlumatı Ermənistanın nüfuzlu "168 saat" qəzeti yazıb.**



*"Hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistanın valyuta ehtiyatı azalmalı idi, çünki..."*

***Aydın Mirzəzadə:** "Ermənistan Azərbaycanla düşmənçilik münasibətinə son qoymadığı üçün, həmin ölkənin ilk növbədə iqtisadi vəziyyəti daha da pisləşəcək"*

Qəzet yazır ki, cəmi son bir ay ərzində valyuta ehtiyatları 255 milyon dollar, yeni 11%-dən çox azalıb: "Ermənistan Mərkəzi Bankının xaricdəki valyuta ehtiyatları 2018-ci ilin dekabrındakı 2 milyard 249 milyon dollarla müqayisədə bu ilin yanvarında 1 milyard 994 milyon dollar təşkil edib".

Qeyd olunub ki, Nikol Paşinyanın başçılıq etdiyi Ermənistan hökuməti 255 milyon dolları milli valyuta olan dramın kursunun sabit saxlanmasına sərf etdiklərini deyir. Lakin hətta Paşinyanın korrupsioner adlandırdığı əvvəlki hökumətlərin vaxtında belə, cəmi 1 ay ərzində Ermənistanın valyuta ehtiyatında bu qədər azalma müşahidə edilməyib.

N.Paşinyan Ermənistana hakimiyyətə gəldikdən sonra həmin ölkənin milli valyutası 11 faiz azalıb.

**Ermənistan valyuta ehtiyatının 11 faiz azalması barədə fikir bildirən millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistanın valyuta ehtiyatı azalmalı idi:** "Çünki Ermənistan iki güclü ölkə ilə qonşudur. Ermənistan özündən qat-qat güclü dövlətlər olan Azərbaycan və Türkiyə ilə düşmən münasibətindədir. Məlumdur ki, Ermənistanın dənizə çıxışı yoxdur. Bu səbəbdən də həmin ölkəyə investisiya yatırmaq istəyən, demək olar ki, yox səviyyəsindədir. Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlaması onun özü üçün hərbi büdcə saxlamasına vadar edir. Təbii ki, belə olan halda, Ermənistanın valyuta ehtiyatı azalmalıdır. Həmin ölkənin var olan azacıq valyuta ehtiyatı əsasən xaricdə yaşayan ermənilərin pul köçürmələri hesabına formalaşır". Millət vəkili onu da vurğuladı ki, Ermənistan Azərbaycanla düşmənçilik münasibətinə son qoymadığı üçün, həmin ölkənin ilk növbədə iqtisadi vəziyyəti daha da pisləşəcək.

*Günel CƏLİLOVA*

# Paşinyanın arvadının Brüssel səfərinin gizlinləri açılır...

*Nikol "sancır", arvadı jurnalistlərin suallarını eşitməzdən gəlir*



**Ermənistanın Baş naziri Nikol Paşinyanın Brüsselə ailəvi səfəri bu ölkədə yeni qalmaqal yaradıb.**

Baş nazir isə sözügedən səfər barədə yazılanları bir növ ələ salaraq özünün facebook səhifəsində yazıb ki, "qospoja Akopyan, KİV-in yazdıqları sizin vecinizə deyil? Axı yazırlar ki, dövlət büdcəsində talan var?"

Yerli mətbuatın Belçikadakı mənbələrinə istinadən yazdığına görə, həmin səfərə Paşinyanın qızı da gedib və bütün dipkorpus səfər müddətində bu ana-qız cütlüyünü əyləndirməklə və brend mağazaları gəzdirməklə məşğul olub. Anna Akopyan isə yazılanlara cavabında bildirib ki, brend mağazalara və restoranlara gedişlərində dipkorpus əməkdaşlarının onları müşayiət etməsində əsas məqsəd jurnalistlərdən - kameralardan yayınmaq olub. Üstəlik, Akopyan KİV-i borclu da çıxarıb. Deyib ki, müraciət etsəydilər, onların suallarını məmnuniyyətlə cavablandırardı və büdcəni talamadıqlarını deyərdi. "Sputnik Armeniya" isə onun bu yalanını anında ifşa edib. Bildirib ki, bundan xeyli əvvəl müsahibə götürmək üçün yazılı müraciət etsələr də, indiyə kimi heç bir cavab almayıblar. Amma elə həmin sözü ilə də Akopyan özünü pis vəziyyətdə qoyub. Axı, jurnalist kameralarından yayınmaq üçün bütün dipkorpusu səfərbər etmək hara, jurnalistləri ondan müsahibə götürməməkdə suçlamaq hara?

Jurnalistlər onun başına göydən düşməli idilər?

*SAMİRƏ*

# Putinin komandasında nə baş verir... Spiker nazirin sözünü kəsib kürsüdən endirdi




**Rusiyada hakimiyyətin iki əsas fiquru arasında siyasi qalmaqal yaşanıb. Belə ki, Dumada iqtisadi inkişaf naziri Maksim Oreşkinin çıxışı Duma sədri tərəfindən kəsilib.**

Baki-xeber.com xəbər verir ki, Rusiyanın sosial-iqtisadi inkişafı il bağlı keçirilən iclasda Duma sədri Vyaçeslav Volodin sözünü kəsdiyi nazir Maksim Oreşkini kürsüdən endirib. Qərarının səbəbi kimi Oreşkinin hazırlıqsız olmasını göstərən Volodin mövzu ilə əlaqədar iclası ertələyib.

Oreşkinin sözünü kəsən Volodin nazirliyin ölkə iqtisadiyyatının inkişafı istiqamətində hansı konkret addımlar atdığını soruşub. Nazirdən ətraflı məlumat verməsini istəyən Duma sədri, "Həmkarlarımız iqtisadiyyatımızın inkişafı üçün nazirliyin nə etdiyini bilmək istəyir. Mövzu ilə əlaqədar hekayə, vəziyyətin təhlili deyil, atılan konkret addımları öyrənmək istəyirlər... Dövlət başçısının təlimatlarının nə zaman yerinə yetirilməyə başlanacağını eşitmək istəyirik" - deyib.

Deputatlarla olan söhbəti mürəkkəb adlandıran Oreşkin dövlət layihələrindən məsul olan bütün nazirlərin Dumaya çağırılmasını təklif edib. Deyib ki, hər bir nazir öz işlərinə özü cavab verməlidir.

Deputat Vladimir Jirinovski Dövlət Dumasında son 20 ildə ilk dəfə bir nazirin çıxışının yarımçıq dayandırıldığını deyib. Digər millət vəkilləri də ölkə tarixində ilk dəfə bir nazirin sözünün parlament sədri tərəfindən kəsildiyini bildirib.

Kreml isə Dumada yaşananları adi iş rejimi kimi dəyərləndirib. Prezident Putinin sözçüsü Dmitri Peskov nazirlərdən gözləntilərinin yüksək olduğunu deyib.

## Paşinyanı "Sehrli çubuğu" da tərk etdi?

**Artıq "Sehrli çubuğu" da Paşinyanı birdəfəlik tərk edib.**

Bu sözləri özünün facebook səhifəsində Respublika partiyasının mətbuat sözçüsü Eduard Şarmazanov yazıb. Bir neçə gün sonra Paşinyanın Baş nazir kürsüsünə oturmasının 10 ayının tamam olduğunu bildirən Şarmazanov yazır ki, bu müddət ərzində onun ölkəyə vəd etdiyi inkişafdan heç bir əsər yoxdu. Partiya sözçüsü bildirir ki, 10 ay öncə Paşinyan ölkədə "sıçrayışlı inkişaf, yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması, siyasi vendettasız hakimiyyət" kimi cəlbedici vədlər verirdi, amma ötən müddət ərzində bu istiqamətlərin heç birində nəinki irəliləyiş, heç yerindən tərpənmə belə gözə dəymir.

Şarmazanov sarkastik formada yazır ki, bütün bu vədləri Nikol Paşinyan "sehrli çubuğun" köməyilə həll edəcəkdi, amma görünür, bu "çubuq" da onu tərk edib. Belə ki, ölkə "sıçrayışlı inkişaf" əvəzinə can verən iqtisadiyyatla üzləşib, maaşların əvəzinə işsizlərin sayı artır, vəd olunan investisiya bumu yerinə isə qoyulan az-çox sərmayənin geriyə axını müşahidə olunur.

Bu sadalananların vəd edilənlərin kiçik bir hissəsi olduğunu yazan partiya sözçüsü deyir ki, vədlərlə insanları qidalandırmaq olmaz, Paşinyan isə xalqa çörək vermək iqtidarında deyil.

Bu halda yaranan "o zaman niyə iqtidardadır" sualının cavabını isə, yəqin, inqilabların məşhur düsturunda axtarmaq lazımdır...

*SAMİRƏ*

**Maliyyə sahəsində bu gün Azərbaycanın əsas üstünlüklərindən biri də böyük həcmdə valyuta ehtiyatlarına sahib olmasıdır. Məhz bu ehtiyatlar ölkəyə çoxsaylı manevr imkanları qazandırır. Ölkənin ixrac potensialının artırılması istiqamətində görülən tədbirlər qarşıdakı dövr ərzində Azərbaycanın valyuta ehtiyatlarının daha da artacağını deməyə əsas verir.**

# Bu il Azərbaycanın valyuta ehtiyatları bir neçə milyard artacaq...



Xatırladaq ki, 2018-ci ildə Azərbaycanın strateji valyuta ehtiyatları 44,9 milyard dollar olub. Strateji ehtiyatlar 31 aylıq mal və xidmət idxalına kifayət edib və xarici dövlət borcunu 3 dəfə, manatla geniş pul kütləsini 5,3 dəfə üstələyib. Cari ilin ötən dövrü ərzində isə valyuta ehtiyatları artıq 46 milyard dolları keçib. Araşdırmalar göstərir ki, son 10 ildə Azərbaycan Dövlət Neft Fondunun valyuta ehtiyatları 27 milyard 296 milyon dollar və yaxud 3,4 dəfə artıb. Hazırda qurumun valyuta ehtiyatları 40 milyard dollara yaxınlaşır. Son 10 ildə Mərkəzi Bankın valyuta ehtiyatları isə 511,3 milyon dollar və yaxud 8,3% azalıb. Buna əsas səbəb məlum devalvasiyalar olub. Amma görülən tədbirlər nəticəsində artıq Mərkəzi Bankın da valyuta ehtiyatları artır. Belə ki, Mərkəzi Bankın sərəncamında olan valyuta ehtiyatları fevralın 1-nə 5 milyard 655,9 milyon dollar olub. Bu göstərici ötən ayın müvafiq dövrü ilə müqayisədə 33,4 milyon dollar çoxdur. Son bir ildə isə valyuta ehtiyatları 274,7 milyon dollar artıb. Qarşıdakı dövr ərzində isə valyuta ehtiyatlarının daha sürətlə artması gözlənir. Elə iqtisadçı-ekspert Vüqar Bayramov da vurğulayır ki, Azərbaycana daxil olan valyuta ehtiyatlarının həcmi bundan sonra xeyli artacaq: "2020-ci il Azərbaycan üçün prioritet illərdən biridir. Gələcəyə baxış konsepsiyasında və Strateji Yol xəritəsində 2020-ci il Azərbaycanda aparılan islahatlar dövrünün həlledici mərhələsi kimi dəyərləndirilir".

Ekspert bildirib ki, 2015-ci ildə başlanan dərin islahatlar gələcək üçün baza formalaşdırıb: "İslahatların tərkib hissəsi olaraq 2019-ci ilin ilk iki ayında əhalinin sosial iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində inqilabi addımlar atılıb. 2020-ci il üçün nəinki Azərbaycan hökuməti, eyni zamanda, beynəlxalq maliyyə qurumları - Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ölkəmizdə iqtisadi artım tempinin sürətlənəcəyini proqnozlaşdırır. 2017-ci il stabillik, 2018-ci il artımların əldə edilməsi dövrü kimi yadda qalıb. 2019-cu il daha sürətli artım, 2020-ci il isə bu sürətli artımın qorunub saxlanması ilə xarakterik olacaq".

Ekspert vurğulayıb ki, 2020-ci ildə Azərbaycana valyuta axınının daha da artacağı gözlənir: "Gələn il "Cənub Qaz Dəhlizi" çərçivəsində TAP boru kəmərinin istifadəyə verilməsi ilə Avropa bazarına Azərbaycan təbii qazının nəqli nəzərdə tutulur. İlkin mərhələdə Avropa bazarına 10 milyard kubmetr Azərbaycan qazı nəql olunacaq. TANAP-la Türkiyəyə nəql edilən qaz həcmləri isə 6 milyard kubmetrə çatacaq ki, bu da ölkəyə daxil olan valyutanın həcmini əhəmiyyətli dərəcədə artıracaq. 2020-ci ildə Bakı-Tiflis-Qars dəmir yolu xəttilə yükdaşımaların artması fonunda da valyuta gəlirləri çoxalacaq. Bundan başqa, Sumqayıt Kimya Parkında qurulan zavodlar qeyri-neft sektorunun artımını sürətləndirələcək. Eyni zamanda, sahibkarlığın inkişafı istiqamətində mühüm addımlar atılacaq". Bütün bunlar Azərbaycanın ixrac potensialını və bu fonda da ölkəyə valyuta daxilolmalarını artırır.

Beynəlxalq qiymətləndirmələrə görə, cari ildə Azərbaycanın valyuta ehtiyatları daha bir neçə milyard dollar artacaq. Bunu şərtləndirən başlıca səbəb qeyri-neft sektorudur. Azərbaycanın hazırda ümumdaxili məhsulunun üçdə iki hissəsindən çoxu məhz qeyri-neft sektorunun hesabına formalaşır. Ekspertlər bildirir ki, turizm, nəqliyyat, kənd təsərrüfatı, informasiya-kommunikasiya sektoru tükənməyən gəlir mənbəyidir ki, bu sahədə də işlər kifayət qədər uğurlu qurulub. Digər tərəfdən, dünyanın bir çox yerlərində Azərbaycanın sənaye evləri və ticarət mərkəzləri açılıb. Bunlar da Azərbaycan brendinin dünyaya çıxmasını şərtləndirən amillərdir. Eləcə də faktdır ki, Azərbaycan artıq Avrasiya məkanının nəqliyyat qovşağına çevrilib. Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqaməti üzrə nəqliyyat qovşağının işə düşməsilə bu istiqamətdən də ölkəyə valyuta axını sürətlə artır. Belə vəziyyətdə artan valyuta ehtiyatları Azərbaycanın beynəlxalq iqtisadi reytinqlərinin yüksəlməsinə də əhəmiyyətli dərəcədə təsir edir.

*Tahir TAĞIYEV*

**Paytaxtın avtomobil nəqliyyatı ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsinə cavabdeh olan Bakı Nəqliyyat Agentliyi yarandığı gündən etibarən bu sahədə yaşanan problemləri aradan qaldırmağa çalışır.**

# Bakının ictimai nəqliyyatı "inqilab" ərəfəsində...

## *Ərşad Hüseynov: "...müəyyən olunan tələblər kifayət qədər ciddidir"*




*"Yeni qaydalara riayət olunarsa, həm təhlükəsizlik təmin olunar, həm də daşıyıcılar keyfiyyətli iş ortaya qoyar"*

Danılmaz faktdır ki, adıçəkilən qurum nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, sərnişindaşıma xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması üçün kifayət qədər iş görüb və görməkdə davam edir. Ümumiyyətlə, son illər Bakı Nəqliyyat Agentliyi paytaxtın nəqliyyat sahəsində yaşanan problemlərin həll olunması istiqamətində inqilabi işlər həyata keçirir. İstismara yararsız avtomobillər xətdən uzaqlaşdırılır, dayanacaqlarda xüsusi duracaqlar quraşdırılır.

Bu günlərdə Bakıda avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələblər müəyyən edilib. Bu məqamlar "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələblər"də öz əksini tapıb.

Tələblərə əsasən, avtobuslar üçün müəyyən edilən cibsiz dayanacaq məntəqəsi minimum 16 metr giriş, 24 metr dayanma və 9 metr çıxış sahəsindən, ümumilikdə, 49 metrdən ibarətdir. Cibli dayanacaq məntəqəsi sürət həddinin və nəqliyyat axınının yüksək, yolun ensiz olduğu yerlərdə təşkil edilir. Cibli dayanacaq məntəqəsi minimum 19 metr giriş, 25 metr dayanma və 25 metr çıxış sahəsindən, ümumilikdə, 69 metrdən ibarətdir.

Avtobus dayanacaq məntəqəsi eyni vaxtda iki və daha artıq avtobus üçün hesablandığı zaman qeyd edilən ölçülərdən əlavə, avtobuslar arasında ən azı 9 metr məsafə nəzərə alınmalıdır. Avtobus dayanacaq məntəqələri şəhər daxilində 400-600 metr, şəhərətrafı ərazilərdə isə 800-1000 metr intervalla yerləşdirilməlidir. Dayanacaq məntəqəsi piyada keçidindən sonra yerləşdirilməlidir. Avtobusların yanalma sahəsi ilə piyada keçidinin arasında minimum 5 metr məsafə olmalıdır.

Həmçinin, dayanacaq pavilyonu avtobusun çıxış sahəsinə yaxın quraşdırılmalı və qurularkən piyadaların hərəkəti üçün minimum 1,2 metr səki sahəsi saxlanmalıdır. Dayanacaq məntəqəsində səkinin eni 2 metrdən az olarsa və gün ərzində 20 sərnişindən az minibdüşmə həyata keçirilərsə, həmin məntəqədə pavilyonun qoyulmamasına yol verilir. Dayanacaq pavilyonu olmayan dayanacaq məntəqələrində marşrutların dayanacaq məntəqəsindən keçmə qrafiki, intervalları və xəritə lövhənin aşağı hissəsində quraşdırılmış əlavə məlumat tablosunda əks olunmalıdır. Ödəmə terminalı dayanacaq məntəqəsi pavilyonunun yaxınlığında təhlükəsiz yerdə yerləşdirilməlidir.

Onu da qeyd edək ki, yollarda sıxlığın aradan qaldırılması üçün məktəblərdə servis avtobuslarının istifadə edilməsi BNA-nın gündəliyində olan prioritet məsələlərdəndir.

**Son zamanlar Bakının nəqliyyat sektorunda görülən işlər, eyni zamanda, paytaxtda avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələblər barədə məlumat verən nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, avtobus, taksi və onların sahiblərinə, eyni zamanda, dayanacaqlarla bağlı xüsusi tələblər müəyyən olunub:** "Müəyyən olunan tələblər kifayət qədər ciddidir. Dayanacaqlarla bağlı kifayət qədər problem var idi. Bəllidir ki, dayanacaqların yerləşdirilməsi sahəsi ilə bağlı narazılıqlar var. Yeni tələblərdə dayanacaqların yerləşdirilməsi məsələsinə xüsusi olaraq toxunulub. Eyni zamanda, marşrut sahibləri qarşısında sürücülərlə necə rəftar olunması məsələsi tələb olaraq qoyulub".

**Həmsöhbətimiz hesab edir ki, Bakı şəhərinin ictimai nəqliyyatı ilə bağlı problemlərin aradan qaldırılması üçün müəyyən edilən yeni qaydalara riayət olunarsa, həm təhlükəsizlik təmin olunar, həm də daşıyıcılar keyfiyyətli iş ortaya qoyar.**

Ekspert onu da vurğuladı ki, bu gün ictimai nəqliyyatda bir sıra problemlər yaşanır. Daşıyıcıların bəzisi texniki baxımdan köhnədir, sürücülər xoşagəlməyən hərəkətlər edir. Müəyyən olunan yeni tələblərin bu kimi halların qarşısının alınmasında da rolu olacaq.

*Günel CƏLİLOVA*

# Gözlər yoldan yığılarmı...

## XATİRƏLƏR, DİLƏKLƏR...

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

***(On üçüncü yazı)***

Uzun bir yol qət edəndən sonra Bakının "Dədə Qorqud" yaşayış məskənində artıq sizlərə təqdim etdiyim Xəqaninin qardaşı Elçinin mənzilində onun oğlu Elvin Əkbərovu dinləyirəm.Yeri gəlmişkən, burda Telli xala və qəhrəmanımızın digər doğmaları ilə də görüşmüşdük. Növbəti yazılarda onların da xatirələrini, diləklərini sizlərə təqdim edəcəyəm. İndi isə Xəqaninin istəkli qardaşoğlusu Elvini dinləyək.

Xəqanidən ayrılarkən Elvinin 7 yaşı olub. O, indi 32 yaşında, iki uşaq atasıdır.Biz bir tərəfə çəkilib qəmgin baxışlar, qəmgin notlar içində söhbətləşirik onunla. Onun körpə - 3-4 yaşlı qızı, təbii bu miqyasda faciənin nə demək olduğunu hələ dərk etməyən Emiliya öz uşaq dəcəlliyi ilə səs-küy salır, arabir söhbətimizə mane olur. Ona acıqlanıb tamam sakitliyə məcbur etmək istəsələr də, buna razı olmuram. Qoy o öz dəcəl uşaqlıq dünyasının verdiyi asudəlik imkanlarından doyunca yararlansın. Onun da buna haqqı var, hələ üstəlik, uşağın bu şirin dilli topuq vuran sözlərinin, şıltaqlıqlarının sevincini yaşamaqda atasının, nənə-babanın da. Axı hər birimiz işıqlı dünyaya göz açmağımızla öz balaca dünyamızın gözəlliklərindən zövq almaqla bərabər, bizi bu cahana bəxş etmiş ata-analara da bir qürur hissi yaşadırıq. Şairə Nəzakət xanım Məmmədovanın itkin-şəhid qəhrəmanımız Xəqaniyə həsr etdiyi "Adsız qəhrəman" poemasında Telli ananın analoji yaşantılarının bədii inikasını canlandıran bir parçanı sizlərə təqdim etmək keçdi ürəyimdən:

*- Bir gün süd qoxulu körpə səsilə,*
*Qucağı sevindi Telli ananın.*
*Taleyi bələndi uşaq ətrinə,*
*Ocağı sevindi Telli ananın.*

*Övlad gəlişinə fərəhlənərək,*
*Gözü gülümsədi Telli ananın.*
*Dilində gül açan laylalarında*
*Sözü gülümsədi Telli ananın.*

*Sonbeşik övladdır bu şirin bala*
*Adını Xəqani qoyduğu oğul.*
*Hər gecə sevgiylə basıb bağrına,*
*Bu arzu ətriylə doyduğu oğul.*

*Hər gün buğda-buğda böyüyən oğul*
*Bir ana ömrünün dayağı oldu.*
*İxtiyar ananın qoca dünyada,*
*Ümid səsi oldu, sorağı oldu.*

*Sonra şairə oxucularının diqqətini Xəqaninin qəhrəmanlıq yoluna cəlb edir:*

*- Yurdun başı üstə qara bulud tək,*
*Qara niyyətini sərmişdi yağı.*
*Barıt tüstüsündə, mərmi odunda,*
*Hər gün boğulurdu vətən torpağı.*

*Yurdun harayına yetişsin deyə,*
*Qeyrəti zirehtək geydi Xəqani.*
*Ölümsüz adlanan bir yol başladı,*
*Ölümün qəddini əydi Xəqani.*

Ona görə bu poemanı məhz bu məqamda xatırladıram ki, Xəqani elə qardaşı oğlu Elvinlə Bakının Sabunçu, Günəşli qəsəbələrində keçirdiyi çağlarda "qeyrəti zirehtək" əyninə geyərək birbaşa döyüşlərə, Qarabağı, yurdumuzu düşmənlərdən qorumağa yollanıb. Poemada Xəqaninin həyat yolunun başdan-başa tərənnümü, eləcə də qaranlıq məqamları və arxasınca buraxdığı tükürpədici izlər də öz əksini tapıb. Yeri gəldikcə, ondan bəzi məqamları sizlərə təqdim edəcəyəm, əziz oxucular! İndi isə Elvinin, digər doğmaların Xəqani ilə ilgili xatirələrini çözələyək.

### Lənətə gəlsin müharibə! Lənətə gəlsin torpaqlarımıza göz dikənlər!

Həmsöhbətim Elvin əmisini yaxşı xatırlayır. Səbəbi o zaman Bakıda zavodda atası Elçinlə birgə işləyən Xəqani ilə onların Sabunçu qəsəbəsində olan mənzillərində subay əmi-bala mehriban bir yerdə yaşamaları, gecələr bir otaqda yatmaqlarıdır. Bir çox insanların həyatında belə maraqlı izlər olur. Əlbəttə, xoş təəssüratlar sonrakı xoşbəxt məqamlarda daha çox yada düşür, xatırlanılır. Elvinə isə hətta o zamankı unudulmaz dəqiqələrdən, birgə keçirdikləri xoş anlardan belə danışmaq çox çətindi. O, uzun müddət itkin düşmüş əmisinin maqnitofon lentinə yazılmış səs yazısını da qoruyub saxlayıb. Əlində başqa nə ola bilərdi ki… Xəqaninin itkin düşdüyü zamanlarda hələ nə internet vardı, nə də video çəkilişləri bu qədər intensiv xarakter almışdı. Həm bu avadanlıqlar yeni-yeni ölkəmizə ayaq açırdı, həm də müharibə, od-alov, hər gün şəhərlərimizə, kəndlərimizə gətirilən şəhid meyitlərini qarşılayan insanlar videoçəkiliş hayındaydılarmı?!.. Elvinin və onunla bərabər bütün doğmaların təsəlli yerlərindən biri də bax, bu lent yazısıdır. Onu mümkün qədər onsuz da ürəyi qübar bağlamış Telli xaladan uzaqda tutmağa çalışsalar da… Əmisini necə xatırladığını soruşuram Elvindən:



- Xəqani əmimi təkcə Sabunçu qəsəbəsindəki evimizdə bizimlə birgə yaşaması ilə yox, həmçinin Günəşlidəki evimizə köçəndə bu mənzilimizin bütün təmir işlərini özünün yerinə yetirməsi ilə də xatırlayıram. O, elektrik işlərini gözəl bacarırdı. Ümumiyyətlə, nəyi bacarmırdı ki… (kövrəlir).

- Xəqaninin görkəmini xatırlayırsanmı?

- Əlbəttə. Onu yaddan çıxarmaq olar?! Düzdü, onda mən elə də böyük deyildim, cəmisi yeddi yaşım var idi. Amma uşağın yaddaşı təmiz və güclü olur deyirlər. Həm də əmimlə birlikdə daha çox vaxt keçirdiyimizə görə, əmimin sifət cizgilərini yaxşı xatırlayıram. Elə bil indiki kimi gözlərim önündə canlanır bütün surəti. İşgüzarlığı, bacarığı da öz yerində. Günəşliyə köçəndən sonra biz Sabunçu qəsəbəsindəki evimizi satdıq. Ondan sonra Xəqani əmim, demək olar ki, həmişə bizimlə qalırdı. Hər gün səhər işə, dərsə gedəndə ondan ayrılıb, axşam yenidən görüşürdük. Onun özünü bizlərə daha çox, daha dərindən sevdirən mehriban xasiyyətini xatırlayıram. Bunları o zaman bir o qədər də dərindən dərk etməli yaşda olmamışam. Amma zaman keçdikcə əmimin həm gözəl insan, həm də çox bacarıqlı birisi olduğunun fərqinə varıram. Deməli, ermənilər təkcə bizim doğmamızı, əmimizi deyil, bütün xalqımıza gərəkli ola biləcək bir şəxsiyyəti sıradan çıxarıblar. Hətta əgər sağdırsa da, onun ölkəmizə, doğmalarımıza verə biləcəyi bütün töhfələrin, faydaların üstündən xətt çəkiblər. Lənətə gəlsin müharibə!Lənətə gəlsin ədavəti salanlar! Lənətə gəlsin tarixi torpaqlarımıza göz dikənlər, həyatımızı cəhənnəm əzabına çevirənlər!



*"Ölümün qəddini əydi Xəqani"*

- Onu Qala qəsəbəsindəki hərbi hissədən yola salanda atanla sən də getmisən…

- Düzü, bunu mənə sonradan dəfələrlə danışıblar, ancaq yəqin uşaq olmuşam deyə o məqamı, nədənsə, yaxşı xatırlaya bilmirəm. Amma özünün bütün çöhrəsini xatırlayıram. Evə gələn kimi vaxtının çoxunu mənimlə keçirirdi. Bir yerdə yemək yeyirdik, bir otaqda da yatırdıq. Onu necə unutmaq olar?! Uşaq yaddaşıma elə həkk olub ki, onun vücudu… Bir də onun axtarılmasını, hər gün təlaş içində yaşadığımız o illəri unuda bilmirəm. Getsin o günlər, gəlməsin!..

### Simuzər bibi: "Axı mənə söz vermişdi!.."

Xaqaninin bibisi Simuzər, onun həyat yoldaşı Əsgər Qəniyevvə onların oğlu - məni müşayiət edib Bakının Biləcəri qəsəbəsindəki öz evində bu görüşü təşkil edən Mübariz, söhbətimizin gedişiatı zamanı evə təşrif buyuran digər oğlanları -Ərşad, daha sonradan gələn qardaşlar Zaur, Natiq, Şahinlə görüşüb-söhbətləşirik. Simuzər bibi məni bir ana nəvazişi ilə qarşılayır. Öyrənirəm ki, o özü də indi mənimlə üzbəüz əyləşən dörd Qarabağ döyüşçüsünün anasıdır.

"Dərdli danışan olar" deyiblər. Yazılarımız, axtarışlarımız haqda məlumatlı olan Simuzər bibi bura nə məqsədlə gəldiyimin səbəbini izah etməmişdən özü danışmağa başlayır:

- O itkin düşənlərin ikisi də nişanlı olublar, bala. Mənim qardaşım oğlu Xəqani də, onunla bir yerdə yoxa çıxan o birisi də. Qardaşımı Xaqanın dərdi, bu çətin düyün öldürdü. Elə bir dərd qismət oldu ki bizə, çəkməklə qurtarmaq olmur. Mənim uşaqlarımı da bax bu iş yerlərindən - DSK-4 deyirlər (keçmiş evtikmə kombinatını nəzərdə tutur - N.Z.), burdan apardılar Qarabağa. Bircə burdakılardan Mübariz qaldı. Onun da evi qazdan partlamışdı, ona görə aparmamışdılar, bala. Allah o günlərimizi heç kimə göstərməsin. Nələr çəkdik...

- Xəqanini sonuncu dəfə nə zaman görmüsüz Simuzər bibi?

- Günü bəlkə də dəqiq xatırlamıram. Bir payız axşamı idi, qışa doğru, dekabr ayının əvvəlləri idi ancaq. Təsadüfən yoldaşım Əsgərlə ikimiz getdik qardaşım Eyvazgilə. Gördük Xaqanın təzə qohumları da gəlib bunlara. Axı təzə nişanlanmışdı. Qinyazgil də, başqa uşaqlarımız da yığışdılar, yemək yedilər. Birdən Xaqan gəlib gülə-gülə hər iki üzümdən öpdü. Ağzında bir cüt qızıl dişi vardı, sol tərəfdə. İndi də gözlərimin qabağındadı. Allaha and olsun, deyərlər ki, "ölən inək südlü olar", amma yox, Xaqan elə həqiqətən də qardaşımın bütün balalarına dəyən bala idi.

- Simuzər bibi, nədənsə hamı belə danışır Xəqani haqqında. Sizin gözlərinizin qabağında böyüyüb, ona görə daha yaxşı tanıyırsınız. Ancaq axtarışlarım, söhbətlərim zamanı bəlkə də ən yaxşı sözü bu mənada onun döyüş yoldaşı, cəmisi iki-üç aya yaxın müddətdə onu tanıyan Cəmaləddin söylədi. Təbii, insan həm dar gündə daha yaxşı tanınır, kimliyini ortaya qoyur, həm də kənar adamın müşahidələri daha cəlbedici, daha səmimi görünür. O dedi vallah, bunları onun öldüsü-qaldısı bilinmədiyinə görə söyləmirəm, Xəqani doğrudan da öz yerini, öz çəkisini bilən bir dost, yoldaş, azərbaycanlı balası idi...

- Hə, hə, hə... Elə biz də ona görə daha çox yanıb-tökülürük. Elə o son görüşümüzdə də məni qucaqladı o üzümdən, bu üzümdən öpəndən sonra mən özümü saxlaya bilməyib ağladım. Bir də boynumu qucaqladı, dedi bibi, sənə qurban olum, ağlama, darıxma, inşallah hər şey yaxşı olacaq. Sənin də oğlanların gələcəklər, mən də gələcəm, sən qəti narahat olma. Dedim Allah sənə də kömək olsun, elə hamınıza da, Allah baisin tifağın dağıtsın, bu od-alovu üstümüzdən götürsün, bizi peşiman eləməsin, bir də yığışarıq, görüşərik, qurbanlarımızı kəsib hamını sevindirərik. Elə bu şəkildə qohum-əqrəba, dediyim kimi, həm də onun təzə qohumları yığışıb oturmuşduq.

***(Ardı 14-cü səh.)***



# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ALLAHVERDİYEV ZİYADXAN**



**SALEH oğlu**

13 yanvar 1957-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Xocalı özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Allahverdiyev Ziyadxan Saleh oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahverdiyev Ziyadxan Saleh oğlu 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı naməlum şəraitdə itkin düşmüşdür. Onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Allahverdiyev Ziyadxan Saleh oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ALLAHVERDİYEVA (QURBANOVA) ƏSLİ MƏHƏMMƏD qızı**



1908-ci ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda doğulmuşdur. İtkin düşənə qədər Kəlbəcər rayonunun Barmaqbinə kəndində yaşamışdır. Mülki şəxs. Allahverdiyeva Əsli Məhəmməd qızı Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 2 aprel 1993-cü ildə Kəlbəcər rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahverdiyeva Əsli Məhəmməd qızı 2 aprel 1993-cü il tarixində erməni silahlı birləşmələri Kəlbəcər rayonunu işğal edən zaman Barmaqbinə kəndi ərazisində naməlum şəraitdə itkin düşmüşdür.

Allahverdiyeva Əsli Məhəmməd qızının sonrakı taleyi barədə məlumat yoxdur.

**ALLAHYAROV ELDƏNİZ KƏRİM oğlu**



14 aprel 1966-cı ildə Azərbaycan Respublikasının Göyçay rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Göyçay rayonunda və Sumqayıt şəhərində yaşamışdır. Göyçay RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Allahyarov Eldəniz Kərim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 5 oktyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahyarov Eldəniz Kərim oğlu 5 oktyabr 1992-ci il tarixində Laçın rayonunun Qızıltəpə məntəqəsi adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Allahyarov Eldəniz Kərim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ALLAHYAROV ETİBAR BALOĞLAN OĞLU**



24 avqust 1969-cu ildə Azərbaycan Respublikasının Xocalı rayonunda doğulmuşdur. İtkin düşənə qədər Xocalı rayon mərkəzində yaşamışdır. Könüllü olaraq Xocalı özünümüdafiə dəstəsinə qoşulmuşdur. Hərbçi. Allahyarov Etibar Baloğlan oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrin 26 fevral 1992-ci ildə Xocalıya hücumu və şəhərdə törədilən soyqırımı faciəsi zamanı itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Allahyarov Etibar Baloğlan oğlu 26 fevral 1992-ci il tarixində erməni silahlı birləşmələrinin Xocalıya hücumu və dinc əhaliyə qarşı törədilən soyqırımı faciəsi zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Allahyarov Etibar Baloğlan oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

---

*(Əvvəli 13-cü səh.)*

Anası Telli də ona yola qoymaq üçün cücə (çolpa) yolurdu, başqa yeməklər hazırlayırdı. Qinyaz səhəri gün onu aparıb Ağdama ötürəsi idi. O gecə bir xeyli söhbətləşdik. Nişanlısının qardaşı arvadı da gəlmişdi. Qadınların da söhbəti uzun olur, bilirsiniz. Çoxlu danışdıq, oturduq həmin gecə onlarda. Sən demə, bu Xəqanini gördüyümüz sonuncu gecə imiş. İnanın ki, o gün, o söhbətlərimiz bir an da gözümün qənşərindən getmir. Elə bilirəm, Xəqani elə o yaşda, o boy-buxunda, o görkəmdə qalıb, elə o görkəmdə də nə vaxtsa gələcək (ağlayır). Axı mənə söz vermişdi!..

Əsgər kişi qoşulur söhbətimizə:

- O günün səhərisi Xəqani çıxıb getdi. Elə hərbi hissəyə çatan kimi də ağır döyüşlər başlayıb, o da birbaşa girib döyüşə. Ağdamın Boyəhmədli, Güllücə, başqa kəndlərində.

Simuzər bibi:

- Hə, bala, elə gedən kimi o qızğın döyüşlərə girib. Sonra xəbəri gəldi ki, itkin düşüb. O vaxtdan 25 ildi nə ölməyi, nə əsir düşməyi, nə düşmən əlində olub-olmamağı bilinmir. Mənim oğlanlarımın da dördünü birdən aparmışdılar müharibəyə. Bax, Zaurum ayağında indi də güllə gəzdirir.

Simuzər bibi bu sözləri danışandan sonra özünü saxlaya bilməyib bir-iki ağız dil deyib ağlayır. Onu sakitləşdiririk. Əsgər kişi "həyatdı da arvad, bəlkə də Allahın məsləhəti beləymiş, bəlkə də elə sağdı, kim nə deyə bilər, bəlkə də sağsalamat qayıdar, Allahın köməkliyi ilə" söyləməklə arvadına bir qədər təskinlik verir. Təbii, onun bu təskinləşdirici fikirlərini biz də qüvvətləndiririk. Mən və stolun ətrafında əyləşmiş oğulları, keçmiş Qarabağ döyüşçüləri. Onlar döyüşdə yaralansalar da, şükür ki, sağ-salamat qayıdıblar. Yəni Xəqaninin bibisi Simuzəri sakitləşdirmək üçün o gecə dilə gətirdiyi dualar, diləklər qismən də olsa yerinə yetib. Ancaq özünün də tapılıb doğmalarına və adını uca tutub sevdiyi Vətən torpağına qovuşması onun istəklərinin başdanbaşa yerinə yetməsi ilə sonuclana bilərdi. İstərdim ki, bunu da biz arzulayaq, istəkli oxucular! Axı yazılarımın əvvəlində bir nüansı xüsusi olaraq vurğulamışdım: Qoca tarix çox belə nümunələr göstərib. Görklər namine!..

### "F" hərfli parollar

Sonra Xəqani haqqında indiyədək mənim qələmə aldıqlarım ətrafında ümumi fikir mübadilələri aparırıq. Qinyaz müəllimin, Əhməd adlı keçmiş əsirin, komandiri Qasımın dedikləri və s. barədə. Elə bu ünvanlı yazılarımızdan media vasitəsilə xəbərdar olduğunu söyləyən Ərşad söhbətimizə də məhz o istiqamətdən körpü salmalı olur. Deyir, əvvəlki axtarışların da, bizim arayıb yazdıqlarımızın da nəticəsindən belə qənaətə gəlmək olur ki, Xəqanini yüz faiz Qırmızı Xaçın siyahısına salmayıb ermənilər:

- Səbəb nə ola bilər, sizin də qeyd etdiyiniz kimi, kəşfiyyatçılıq ola bilər, ya başqa səbəb var, burası məlum deyil. Amma bir qədər geniş mən sizi məlumatlandırım. Bilirsiniz ki, anamın da dediyi kimi, biz - dörd qardaş müharibə iştirakçısıyıq. Döyüşlərdə bilavasitə iştirak etmişik, yaralanmışıq, veteranıq, mən ümumiyyətlə Qarabağ əliliyəm. Xəqani isə bizdən də bir qədər əvvəl getmişdi cəbhəyə. Kəşfiyyatçılıq da bilirsiniz də nədi? Orda ad çəkmək olmaz. Ancaq əsasən şərti adlarla və nömrələrlə əlaqələnir bir-biri ilə kəşfiyyatçılar.

- Yəqin Xəqaninin komandirinin bizə müsahibəsində oxumusuz. Onların batalyonunda da bu vacib amil gözlənilirmiş...

- Oxumuşam. Elə mənim kiçik qardaşım Murovdağda vuruşanda onların da başına buna uyğun hadisələr gəlmişdi. Bu zaman parollar da tez-tez dəyişilir. Məsələn, ermənilərin deyə bilmədiyi hərflərdən çox istifadə olunurdu parollarda. Tutalım, onlar "F" hərfini deyə bilmədiyinə görə bizimkilər Fatma, Fatı kimi sözlərdən çox istifadə edirdilər parollarda. Çünki bilirsiniz ki, ermənilər "F"-nı "P" kimi tələffüz edirlər deyə, soruşanda, anındaca bilinirdi ki, bu kənar adamdı, bizimkilərdən deyil.

- Xəqani itkin düşəndə siz də Qarabağda döyüşürdünüz artıq?

- Bəli, biz də döyüşlərdə idik o zaman. Xəqani Sabunçudan, biz isə Binəqədidən getmişdik. Qarışıq bir zaman idi. Özümüz də döyüş bölgəsində olduğumuzdan bir-birimizdən xəbərsiz idik. Mən yaralanıb hospitala gələndən sonra məni yoluxmağa gələn qohum-qardaşdan xəbər tutmuşam ki, bəs Xəqani itkin düşüb, şəhid olması və ya əsir aparılmasından da heç bir xəbər yoxdu. Hospitalda isə mənimlə bərabər digər qardaşım - Zaur da yaralı vəziyyətdə idi. Elə ikimiz bir yerdə yatıb müalicə alırdıq.

- Bəs siz hansı bölgədə vuruşurdunuz?

- Horadiz əməliyyatından qabaq Beyləqanda idik. Qoy bir az ətraflı danışım.

- Buyur.

- 1993-cü ilin oktyabr ayında mərhum dövlət başçısı Heydər Əliyev prezident seçildi. Noyabr ayında isə xalqa müraciət etdi ki, torpaqlarımızı azad etməliyik. Bax bu çağırışa cavab olaraq bu gördüyün məhəllədə (söhbət Bakının Biləcəri qəsəbəsində kompakt yaşayan, keçmiş DSK-4 - Evtikmə Kombinatının işçilərindən gedir. Kombinatla bu ərazinin ara məsafəsi çox yaxındır - N.Z.) yaşayan, DSK-4-ün işçilərinin əksəriyyəti, belə demək mümkünsə, elliklə cəbhəyə getdik. Kombinatın 1500 nəfər işçisi var idi, onların 500-ü cəbhəyə yollandı. Mən onda kadrlar idarəsinin rəisi işləyirdim. Mən də cəbhəyə getdim. Qardaşlarımla bərabər. Noyabrın 16-da biz olduq Beyləqanda döyüş bölgəsində. Dekabrda artıq ermənilərlə üzbəüz döyüş mövqelərində idik. Dekabrın 10-da heç kimin gözləmədiyi vəziyyətdə ermənilər hücuma keçdi. Əvvəlcə bizə çətin gəldi birdən-birə döyüşə girmək. Amma sonradan hər şey adama adiləşir. Ölənləri, yaralıları görüb yerbəyer etməkdən, çığırtılara, bir sözlə, o vahiməli vəziyyətə öyrəşməkdən tutmuş böyür-başından "Qrad"ın keçməsinə qədər. Bax, bu gördüyün məhəllənin camaatı, üstəlik Abşeron batalyonu, Quba batalyonu erməniləri Beyləqana buraxmadı. Horadiz əməliyyatından sonra bizi göndərdilər Ağcabədinin Ovşar kəndinin yuxarısında yerləşən o vaxtkı Martuni, indiki Xocavənddə məxsus Kuropatkino kəndinin girəcəyinə. Mən orda yaralandım. Sonra gəldim, dediyim kimi, bir müddət hospitalda yatdım. Ardımca balaca qardaşım Zaur da yaralandı gətirildi ora. Hətta yer çatışmırdı, Zauru gətirib öz çarpayımda yatızdırdım, ikimiz bir yerdə yatası olduq. Cəbhədə də bizi bir yerdə vuruşmağa qoymurdular. Çünki Zəngilan rayonundan iki qardaşdan biri şəhid olmuşdu, o biri də onun meyitini qoyub gələ bilməmişdi deyə, onu da vurmuşdu ermənilər. Bu hadisədən sonra doğma qardaşları bir yerdə vuruşmağa qoymurdular, çünki istər-istəməz qan çəkəcək, onlar da bir-birini ya yaralı, ya da ölmüş halda qoyub gedə bilməyəcəkdilər. Bu, müharibənin qanunlarından hesab olunur ki, qardaşlar bir yerdə vuruşmasınlar qeyd etdiyimiz səbəblərdən. Bizi də bu minvalla bir-birimizdən ayırdılar orda, birimiz ön cəbhədə olanda, o birimizi bir az arxaya çəkirdilər və ya əksinə.

- Aydındı. Bəs Xəqani ilə döyüş bölgəsində hər hansı əlaqəniz olmayıb deyirsiz...

- Xeyr. Amma Qarabağda olduğunu bilirdim.

*(ardı var)*

***Nəzirməmməd Zöhrablı***

# Aşıq Sənəti Muzeyi...

**"Aşıq sənətinə qayğı siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. O, zaman-zaman ustad aşıqların yubileylərinin keçirilməsi, onların yaradıcılıq irsinin çap olunması ilə bağlı sərəncamlar imzalayıb. Bu gün aşıq sənətinə dövlət qayğısı çox yüksək səviyyədədir və cənab Prezident İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət yetirir.**



*"Bu muzey aşıq sənəti ilə bağlı yaradılan ilk rəsmi muzeydir"*

***Məhərrəm Qasımlı:** "Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyinin yaradılması və onun binasının tikintisinin başa çatdırılması üçün Prezident sərəncamı ilə vəsait ayrılması dövlətin milli dəyərlərimizə verdiyi böyük qiymətin təzahürüdür"*

Dövlət səviyyəsində mütəmadi olaraq ustad aşıqların yubileyləri, xatirə günləri qeyd edilir. Bu olduqca təqdirəlayiq bir haldır.

Prezident İlham Əliyevin Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında imzaladığı sərəncamı aşıq sənətinə verilən ən ali dəyərlərdən biri hesab edirəm. Tovuzda aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi bütün aşıqlar tərəfindən yüksək qiymətləndirilir və Azərbaycan Aşıqlar Birliyi sədri olaraq cənab Prezidentə öz adımdan və aşıqlar ordusu adından böyük təşəkkürümü çatdırmaq istəyirəm. Yeri gəlmişkən, bildirim ki, milli musiqi alətimiz olan saz müxtəlif muzeylərin ekspozisiyasında, sərgilərində yer tutsa da, ayrıca aşıq sənəti muzeyimiz yox idi. Bu muzey aşıq sənəti ilə bağlı yaradılan ilk rəsmi muzeydir. Bu muzey qədim tarixə malik olan aşıq sənətinin təbliğində, xalq arasında geniş yayılmasında çox mühüm rola malik olacaq".

Bunu "Bakı-Xəbər"ə Tovuz rayonunda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi işlərinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli, 890 nömrəli Sərəncamına münasibət bildirərkən **Azərbaycan Aşıqlar Birliyinin sədri, əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı deyib.**

O, həmçinin, vurğuladı ki, bu muzeyin inşasının başa çatdırılması üçün Mədəniyyət Nazirliyinə 3 160 000 (üç milyon yüz altmış min) manat ayrılması muzeyin inşa edilərək aşıqsevərlərin ixtiyarına verilməsini reallaşdıracaq.

"Bu muzeyin yaradılması, dövlət tərəfindən onun üçün ayrıca bina inşa edilməsi çox mühüm hadisədir. Bilirsiniz ki, dövlətin, Mədəniyyət Nazirliyinin aşıq sənətinin inkişafı ilə bağlı konkret proqramı var. Tovuzda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyinin yaradılması da bu proqrama daxildir. Aşıq sənətinin inkişafı ilə bağlı çoxsaylı layihə həyata keçirilir və bu layihələrin hər biri bizi sevindirir.

Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun Azərbaycandakı xoşməramlı səfiri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın qayğısı və təşəbbüsü ilə Azərbaycan aşıq sənətinin 2009-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilməsi hadisəsi aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqlədi. Aşıq sənəti hər zaman dövlətin qayğısı ilə əhatə olunub. Bu da sözsüz ki, bizə xoş təsir bağışlayır.

Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyinin yaradılması və onun binasının inşasının başa çatdırılması üçün Prezident sərəncamı ilə vəsait ayrılması dövlətin milli dəyərlərimizə verdiyi böyük qiymətin təzahürüdür" - deyə M.Qasımlı bildirdi.

***İradə SARIYEVA***

# Uşaq xalq çalğı alətləri ansambllarının bu günü...

**Uşaq musiqisinin inkişafı olduqca vacibdir. Bu gün Azərbaycanda uşaq musiqisinin səviyyəsi bir sıra mütəxəssisləri qane etmir. Onlar hesab edirlər ki, həm uşaq xalq çalğı alətləri orkestrlərinin, həm uşaq xorunun, həm də digər bu sahədə olan kollektivlərin fəaliyyəti gücləndirilməlidir.**



***Oqtay Rəcəbov:** "Uşaq musiqi kollektivlərinin fəaliyyəti gücləndirilməlidir"*

***Elçin Abbasov:** "Bakının müxtəlif musiqi məktəblərindən seçilən 50 şagirdin yer aldığı xalq çalğı alətləri orkestri 2009-cu ildən uğurla fəaliyyət göstərir"*

Qeyd edək ki, bu gün Azərbaycanda müxtəlif uşaq musiqi kollektivləri fəaliyyət göstərir və onlardan "Bənövşə" uşaq xoru, uşaq və gənclər xalq çalğı alətləri orkestri və digərlərinin adlarını çəkə bilərik. Onu da vurğulayaq ki, ölkədə mövcud olan musiqi məktəblərinin bir çoxunda da ayrıca uşaq musiqi kollektivləri var.

**Xalq artisti, tanınmış uşaq bəstəkarı Oqtay Rəcəbov bizimlə söhbətində bildirdi ki, Sovet dövründə bu sahədə mövcud olmuş bir sıra ənənələr var, onların bu gün də davam etdirilməsi vacibdir.** Onun sözlərinə görə, bu gün uşaq musiqi kollektivlərinin vəziyyəti elə də ürəkaçan deyil: "Uşaq musiqi kollektivlərinin vəziyyəti yaxşı deyil. Sovet dövründə bu məsələyə daha çox diqqət yetirilirdi. Biz bu ənənəni davam etdirməli idik. Bu ənənəni davam etdirmədiyimiz üçün, bu sahədə müəyyən qayğılar var. Uşaqların bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların estetik tərbiyəsi ilə də məşğul olmalıyıq. Bu sahədə biz çox axsayırıq. Bu aradan qaldırılmalıdır. Mən bir neçə dəfə mətbuatda çıxış etmişəm ki, orta ümumtəhsil məktəblərində ikinci növbədə ödənişli musiqi dərnəkləri yaradılsın və oradan əldə edilən maddi gəlirlərdən həm məktəbin maddi bazası düzəlsin, həm də dövlət büdcəsinə vergilər daxil olsun. Təxminən bir ay bundan əvvəl Milli Məclis ümumtəhsil məktəbləri ilə bağlı qanun qəbul etdi və burada yer alan məsələlərdən biri də məktəblərə pul qazanmaq üçün səlahiyyətlər verilməsidir. Çox sağ olsunlar, bu çox vacibdir".

Oqtay müəllim "Bakıda "Bənövşə" uşaq xoru, eləcə də Dövlət Uşaq Filarmoniyasının nəzdində uşaq-gənclər xalq çalğı alətləri orkestri fəaliyyət göstərir. Bəs onların fəaliyyəti necə, sizi qane edirmi" sualımıza O.Rəcəbov "Bu kollektivlər var, fəaliyyət göstərirlər. Ancaq uşaq musiqi kollektivləri kütləvi şəkildə olmalıdır. Çünki estetik tərbiyəsi onların həyatında çox mühüm rol oynayır. Bu baxımdan, uşaq musiqi kollektivlərinin fəaliyyəti gücləndirilməlidir. Orta ümumtəhsil məktəblərində musiqi dərslərinə çox saat ayrılmalıdır. Mən vaxtilə respublikada ilk dəfə olaraq İncəsənət Gimnaziyası adlı bir məktəb yaratdım. Ora internat idi. Mən həmin gimnaziyaya on il rəhbərlik etdim, sonra elmi işlərimlə əlaqədar oranı tərk etdim. Bu gün bizim məktəblərin 50 faizi musiqi profilli məktəblər olmalıdır. Çünki bu çox vacibdir" - deyə cavab verdi.

**Uşaq və gənclər xalq çalğı alətləri orkestrinin direktoru Elçin Abbasov isə "Bakı-Xəbər"ə bildirdi ki, bu kollektiv daim öz uğurlu çıxışları ilə diqqəti çəkir.** O qeyd etdi ki, burada fəaliyyət göstərən uşaqlar arasında laureat adı alanlar da çoxdur: "Bizim kollektivdə çox istedadlı uşaqlar var. Kollektiv Mədəniyyət Nazirliyinin qərarı ilə 10 ildir yaradılıb və bu illər ərzində bir sıra uğurlara imza atıb. Nəsillər dəyişir, bir uşaq gedir, onun yerinə başqa bir uşaq gəlir. Musiqi məktəblərinin özləri bizimlə əməkdaşlıq etməkdə maraqlıdırlar. Bir də görürsən ki, hansısa bir musiqi məktəbindən bizimlə əlaqə saxlayıb deyirlər ki, bizdə çox gözəl nağara ifaçısı var, başqa birisi "istedadlı qaboy ifaçımız var" deyir. Biz istedadlı uşaqları öz kollektivimizə dəvət edirik. Onlar respublikanın, demək olar ki, çox yerlərində konsert proqramları ilə çıxış edirlər. Uşaq və gənclər xalq çalğı alətləri orkestrinə böyük dövlət qayğısı var və nazirlik kollektivə hər zaman böyük diqqət göstərir" - deyə E.Abbasov vurğuladı.

O, həmçinin, bildirdi ki, kollektivin repertuarında Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Vasif Adıgözəlovun, Tofiq Quliyevin və başqa bəstəkarların əsərləri yer alır. "Bakının müxtəlif musiqi məktəblərindən seçilən 50 şagirdin yer aldığı xalq çalğı alətləri orkestri 2009-cu ildən uğurla fəaliyyət göstərir. Ötən müddətdə uşaqların yarıdan çoxu respublika müsabiqələrinin qalibi olub, 7 nəfər Prezident təqaüdünə layiq görülüb" - deyə müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

№ 45 (3943) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

www.baki-xeber.com

8 MART 2019-cu il



# İnsult keçirən xəstəni bu cür xilas edin - Çinli həkimin metodu

Çinli professorlar hər kəsə evində şpris və ya iynə saxlamağı məsləhət görür. "Medicina.az" təqdim etdiyi bu möcüzəvi və qeyri-ənənəvi üsul sizi insultdan xilas edəcək. İnsult baş verdikdə beyin kapillyarları tədricən partlayır. İnsult zamanı sakitliyi qoruyun. Xəstə insanı tərpətməyin, çünki kapillyarlar daha da çox zədələnə bilər. Zərərçəkənə oturmağa kömək edin. Bu insanı növbəti dəfə yıxılmaqdan qoruya bilər. Əgər əlinizin altında inyeksiya üçün şpris və ya adi iynə varsa: 1. İynəni odda tutaraq sterilizə edin, daha sonra əl barmaqlarının hər birini dırnaqdan 1 mm aralı olmaq şərti ilə deşin. 2. Elə deşmək lazımdır ki, qan çıxsın. 3. Əgər qan gəlməsə, o zaman həmin yeri barmağınızla sıxaraq qan çıxartmağa çalışın. 4. Barmaqların hamısından qan gəlməyə başladıqdan sonra xəstə özünə gələcək. 5. Əgər xəstənin ağzı əyilibsə, onda onun qulaqlarını qızarana qədər dartın. 6. Daha sonra hər iki qulağın məməciklərini deşərək, ordan qan çıxmasını təmin edin. Bütün bu prosedurlardan sonra xəstənin vəziyyəti normallaşarsa, onu xəstəxanaya aparmaq olar. Əks halda, təcili tibbi yardım vasitəsilə xəstəxanaya aparılan kritik vəziyyətli xəstənin avtomobildə silkələnməsi ona daha çox zərər verə bilər. Çin həkimlərinin bildirdiklərinə görə, bu üsul xəstəyə 100 faizli təsir göstərir.

# Alp dağlarında 250 milyon il yaşı olan balıq aşkarlandı

**Paleontoloqlardan ibarət beynəlxalq qrup İsveçrənin Tiçino kantonundakı San-Corco dağları yaxınlığında elmə məlum olmayan üç balıq növünün qalığını kəşf ediblər.**



"Ölkə.az" bildirir ki, bu barədə Münhenin "Lüdviq və Maksimilian" universitetinin rəsmi internet səhifəsində məlumat verilib. Tapılan balıq nümunələrinin 250 milyon il yaşı var. Onlar tamamilə nəsli kəsilmiş sümüklü "Eosemionotus" balıq növünə məxsusdurlar. İlk balıq Berlin ətrafında 1906-cı ildə kəşf edilib və "Vogeli" adlanır. İkinci dəfə isə 2004-cü ildə Tiçinoda tapılan balığa "E.Ceresiensis" adı verilib. Sonuncu dəfə Yerdə kütləvi qırğın 250 min il əvvəl olub. Yeni tapıntılar sübut edir ki, sonuncu təbii fəlakətdən sonra biosfer qatı daha tez bərpa olunub.

## "Azercell"in "Samsung S10" kampaniyasına qoşul, 6 ay Limitsiz İnternet paketi hədiyyə qazan

**Ölkədə mobil rabitə bazarının lideri olan "Azercell Telekom" MMC, hər zaman olduğu kimi, innovativ həllər və müasir texnologiyalar vasitəsilə müştərilərinə xidmət göstərmək məqsədilə, bu dəfə abunəçilərinin istifadəsinə yeni "Samsung S10" kampaniyasını təqdim edir.**

Mart ayının 8-dən 31-nə kimi "Samsung S10" kampaniyası çərçivəsində "Azercell" dükanlarından "Samsung" telefonu əldə edən hər bir abunəçiyə 6 ay ərzində pulsuz Limitsiz İnternet paket hədiyyə təqdim ediləcək. Kampaniyadan yararlanmaq üçün "Samsung S10", "Samsung S10+", "Samsung S10 lite", "Samsung A750", "Samsung J600" və ya "Samsung J250" telefon modellərindən birini "Azercell" Eksklüziv mağazaları və ya "Azercell" Diler şəbəkələrindən əldə etmək kifayətdir.

Qeyd edək ki, rəqəmsal dünyanın ən son yeniliklərini ölkədə tətbiq etməyi hədəfləyən "Azercell" bundan sonra da abunəçilərini yeni kampaniyalarla sevindirməyə davam edəcək.

Qarşıdan gələn bayramlarda yaxınlarınızı sevindirmək üçün "Azercell"in sərfəli kampaniyasından yararlanmaq fürsətini qaçırmayın.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki rayonu, Baş Zəydid kənd sakini İsmayılov Süleyman İsmayıl oğlunun və ailə üzvlərinin JN: 778 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

Məmmədov Hacıbaba Ağasəlim oğlunun adına AZ 99-ZC-289 dövlət qeydiyyat nişanlı qoşqunun texniki pasportu itdiyi üçün etibarsız sayılır.

---

Bakı Şəhər İcraiyyə Komitəsinin Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyi Türkan Bağlar sahəsindəki 242 nömrəli kooperativ tərəfindən Quliyev Məmmədəli Heydər oğlunun adına verilmiş 21 nömrəli order itdiyi üçün etibarsız sayılır.

## Atlantik okeanındakı böyük çökəkliyin sirri...

Böyük Mavi Dəlik Atlantik okeanında yerləşir və dərinliyi 124, diametri isə 300 metrdir. Sözügedən çökəklik 1972-ci ildə fransız tədqiqatçı Jak-İv Kusto tərəfindən kəşf edilib. Kusto və həmkarları müəyyən ediblər ki, dəliyin dibində oksigen miqdarı o qədər azdır ki, burada heç bir mürəkkəb canlı yaşaya bilməz. Bu gün Böyük Mavi Dəliyin tədqiqatı ilə Fabyen Kusto-əfsanəvi Kustonun nəvəsi və britaniyalı milyarder Riçard Brenson məşğul olur. Onlar ilk dəfə olaraq dəliyə 2018-ci ilin dekabr ayında eniblər və bir tapmaca ilə rastlaşıblar. Tədqiqatçılar dəliyin dibində bir sıra qəribə izlərlə rastlaşıblar. Kusto və Brenson gözəl bilirdilər ki, belə şəraitdə mürəkkəb canlılar yaşaya bilməzlər. Bir neçə gün əvvəl isə yenidən suyun dibinə enən tədqiqatçılar nəhayət, izlərin kimə məxsus olduğunu müəyyən ediblər. Məlum olub ki, Mavi Dəliyin dibi molyuskların qəbirstanlığıdır. Oksigensiz yerə düşən molyusklar boğularaq yuxarı çıxmağa çalışsalar da, boğulub ölürlər. Bu izlər isə onlara məxsusdur...





**Qoç** - Son hadisələr, alınan məlumatlar perspektivləri düşünməyə, prioritetləri dəqiq müəyyənləşdirməyə zərurət yaradır. Ünsiyyəti minimuma endirin. Təhlil üçün əlverişli şərait yaradın.



**Buğa** - İstədiyiniz yox, vacib olan işlə məşğul olun. Fəaliyyət müstəvisində qayda yaradın. Yaxınlarınızın tapşırıq və xahişlərini yerinə yetirin. Belədə münasibətlərin ümumi fonu yaxşılaşar.



**Əkizlər** - Ən kiçik, ilk baxışdan önəmsiz təsir bağışlayan hadisələrdə diqqətli davranın. Təfərrüatları nəzərdən qaçırmayın. Ev işlərini bitirməyə, məişət qayğılarını nizamlamağa vaxt ayırın.



**Xərçəng** - İşlərinizi rasionallaşdırın. Məntiqlə davranın, qərarlarınızın ağıllı olmasına can atın. Detalları saf-çürük edin. Aldığınız məlumatı təhlilə uğradın. Yalnız bundan sonra yeni məqsədləri müəyyənləşdirmək olar.



**Şir** - İşlərinizdə səhman yaradın, başlanmış prosesləri səhmana salın. Təsərrüfatda gərəkli məhsulları alın. Heç bir işdən çəkinməyin. Yaxın gələcəklə bağlı planlarınızı müzakirə edin, danışıqlar aparın.



**Qız** - Təşkilatçı olun, problemlərin çözümündə liderlik edin. Səlahiyyətləriniz arta bilər. Əlavə işlər və tapşırıqlar olacaq. Bununla belə, az işləyib çox qazanmağın yollarını düşünün. Özünüzə və başqalarına qarşı iradlarınız artmasın.



**Tərəzi** - Günün ilk yarısından etibarən yaranan problemlər nə qədər ağır və mürəkkəb olarsa, onları çözməkdə o qədər aktivlik nümayiş etdirin. Kreativ davranın. Lakin başqalarının əvəzinə işləməyin.



**Əqrəb** - Yaxın ətrafınızdakı insanla dil tapmağa çalışın. Qarşı tərəfin emosional durumunun incəliklərinə fikir verin. Əks təqdirdə, ən cüzi səbəblərə görə iradlarla qarşılaşacaqsınız. İfrat tələbkarlıq ümumi işin ziyanınadır.



**Oxatan** - Proseslərə süni təkan vermək əvəzinə yaşananları diqqətlə müşahidə edərək lazımi nəticələr çıxarın. Gərəkli anda lazımi yerdə olmağı bacarın. Yardım və yaxşı məsləhət istisna deyil.



**Oğlaq** - Bir qədər fəal çalışın, yaranan şanslardan maksimum istifadə edin. Gün ərzində sürprizlər az olmayacaq. Ev işləri ilə məşğul olmaq niyyətiniz varsa, çətinlikləri tələsmədən aradan qaldırın.



**Dolça** - Maliyyə məsələləri və yaxın gələcəklə bağlı tələsik qərar verməyin. Situasiyada dəyişikliklər olacaq. Uzun müddətdən bəri, zəhmətlə hazırladığınız planlara yeniliklər edin.



**Balıqlar** - Günün ilk yarısından etibarən güzəştlərə meylli olsanız, bir sıra mövqelərinizi itirə bilərsiniz. Qərarların qəbulundan bilərəkdən yayınmayın. İradəli və qətiyyətli olun. Güclü insan təsiri bağışlayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Kardiostimulyator enerjini ürəkdöyünmədən toplayacaq

**Çin alimləri ürəkdöyünmənin təbii enerjisi vasitəsilə kardiostimulyatoru enerji ilə doldurmaq üçün kompleks metod hazırlayıblar.**

"ICTnews" bildirir ki, kardiostimulyator ürəyin normal ritminin bərpası və ürək-damar xəstəliklərinin müalicəsi üçün dərialtı implantasiya edilən ən geniş yayılmış elektron tibbi cihazlardandır. Lakin ona quraşdırılan batareyanın istismar müddəti məhduddur və cərrahi müdaxilə vasitəsilə hər 5-12 ildə əvəzolunmanı tələb edir. Şanxay Universitetinin alimləri isə kənar enerji mənbəyi olmadan ürəkdöyünmənin təbii enerjisindən enerji toplayan tam işlək kardiostimulyator ərsəyə gətiriblər. Kardiostimulyator üçün enerji generatoru elastik karkasdan və qurğu üçün lazım olan həcmdə elektrik enerjisi hasil edən iki pyezoelektrik kompozitdən ibarətdir. Yeni qurğunun donuzlar üzərində uğurlu sınaqları keçirilib. Tədqiqat avtonom enerji mənbəyinə malik kardiostimulyatorun yaradılması və pyezoelektrik akkumulyasiya texnologiyaları vasitəsilə implantasiya edilən tibbi cihazların enerji ilə təchiz edilməsi üçün problemin həlli üzrə mühüm addımdır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.